# Xalq qəzeti

Xalqın qəzeti!

№ 73 (30767) 15 aprel 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Azərbaycan layiqli əmək ölkəsidir

*Prezident İlham Əliyev Beynəlxalq Əmək Təşkilatının Baş direktorunu qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul edib.**

Görüşdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə əmək, məşğulluq, habelə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər və əldə olunan uğurlar qeyd edildi.

Prezident İlham Əliyev torpaqlarımızın işğal altında olduğu dövrdə bütün infrastrukturun tamamilə məhv edildiyini xatırladaraq vurğuladı ki, işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa və quruculuq işləri ilə yanaşı, həmin ərazilərə qayıdan insanların işlə təmin edilməsi ən vacib məsələlərdən biridir. Dövlətimizin başçısı bununla bağlı Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən qonaq Azərbaycan ilə rəhbərlik etdiyi təşkilat arasında layiqli əmək üzrə 2 proqramın uğurla icra olunduğunu xatırladaraq, hazırda "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın layihəsi üzərində işlərin davam etdirildiyini dedi.

Jilber Hunqbo Azərbaycanın DOST konsepsiyası modelinin öyrənilməsinin əhəmiyyətinə toxundu, sosial sahədə həyata keçirilən islahatlarla bağlı təcrübənin bölüşdürülməsinin vacibliyini vurğuladı.

O, COP29 çərçivəsində ədalətli keçid üzrə səmərəli müzakirələrin aparıldığını dedi və bunun nəticəsi olaraq Avropa və Mərkəzi Asiya üzrə Regional İşçi Qrupunun yaradılmasını xüsusilə qeyd etdi.

Jilber Hunqbo Beynəlxalq Əmək Təşkilatının sosial məsələlərlə bağlı ölkəmizin inkişaf prioritetlərinə dəstək verəcəyini bildirdi.

*AZƏRTAC*

## Azərbaycan – Gürcüstan əməkdaşlığı regionda sülhə və tərəqqiyə xidmət edir



**"Gürcüstanın bütün daxili işləri Brüsseldəki bürokratlar deyil, gürcü xalqı tərəfindən həll edilməlidir. Beləliklə, biz Azərbaycan ilə Gürcüstan arasında tərəfdaşlığı gücləndirməliyik". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı dedi.**

Dövlət başçımız bildirdi ki, Azərbaycan Avropa Komissiyası və Avropa təsisatları ilə yaxşı əlaqələrə malik olmaq istəyir, ancaq Azərbaycanın və Gürcüstanın maraqlarının qurban verilməsi hesabına yox: "Cənubi Qafqazın aparıcı dövlətləri olaraq Azərbaycan və Gürcüstan bu işdə məsuliyyəti öz üzərinə götürərək əməkdaşlıq etməlidirlər. Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı konstitusiyasına dəyişiklik edəcəyi təqdirdə bu prosesə qoşula bilər".

Prezident qeyd etdi ki, Gürcüstanla əlaqələr strateji əhəmiyyətə malikdir. Azərbaycanın Gürcüstanla sıx əməkdaşlığı sayəsində bir çox mühüm layihə həyata keçirilib. Onilliklər sonra belə, bu layihələr aktuallığını qoruyub saxlayır, çünki onların regionun, həm də Avropanın təhlükəsizliyini gücləndirmək baxımından böyük potensialı var. Xüsusilə, enerji və nəqliyyat sahələrində bu layihələr mühüm rol oynayır. Yalnız region ölkələri üçün deyil, bütövlükdə, Avropa üçün yeni imkanlar açır".

(ardı 5-ci səhifədə)

## Orta əməkhaqqı 10 faiz artıb



Səhifə ⇨ 9

## Ülvi sevgilərin zərif ünvanı



Səhifə ⇨ 7

## Tarixi reallıq və doğru seçim



**Həm Qərb, həm də Şərqlə balanslaşdırılmış siyasətə üstünlük verən Azərbaycanın hazırda Çinin dominantlıq etdiyi Şərqə yaxınlaşmasını görürük. Ölkəmizin bu istiqamətdə atdığı addımlar geostrateji, geoiqtisadi, eləcə də siyasi-mədəni mövqe və inkişafla birbaşa bağlıdır. Güc mərkəzlərinin təmərküzləşməsi prosesinin getdiyi çağdaş dünyamızda dəyərlərdən daha çox qarşılıqlı maraqların ön plana keçdiyi danılmaz faktdır. Rəsmi Bakının ermənipərəst Fransanın rəhbərliyində "kollektiv Qərb"dən uzaq durması, Rusiya və Türkiyə treklərində balanslaşdırılmış siyasətə üstünlük verməsi, hər ikisi ilə müttəfiqlik sazişi imzalaması, eyni zamanda, Çinlə tərəfdaşlıq münasibətlərinin perspektivinə hesablanmış əlaqələr qurması məhz həmin amillərlə izah olunmalıdır.**

*(ardı 8-ci səhifədə)*

## Azərbaycanın iqtisadi uğurları beynəlxalq hesabatlarda yüksək qiymətləndirilir




**Azərbaycanın 2030-cu iləddək Milli Prioritetlərində və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında qarşıya qoyulan vəzifələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft ixracında daha yüksək göstəricilər əldə etmək, bununla da dünya iqtisadiyyatında respublikamızın mövqeyini gücləndirmək hədəflənir. Beynəlxalq təşkilatların keçirdikləri sorğuların nəticələri də bu məqsədin gerçəkləşəcəyi əminliyini möhkəmlədir.**

*(ardı 9-cu səhifədə)*

## "Mirzoyansayağı" diplomatiya

*Ermənistanın XİN rəhbərinin "Antalya manifestinə" sözardı*



**IV Antalya Diplomatiya Forumunda "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" mövzusu ətrafında müzakirə oldu. Bununla bağlı keçirilən panel iclasda Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, eləcə də Gürcüstanın və Ermənistanın XİN başçıları Maka Boçorişvili ilə Ararat Mirzoyan iştirak etsələr də, iclas daha çox birinci ilə üçüncü arasındakı debat kimi yadda qaldı və bu, müəyyən mənada gözlənilən idi.**

Tədbirdə çıxış edən Ceyhun Bayramov İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistanın Cənubi Qafqazda tarixi bir hadisə olaraq normallaşma prosesinə başladığını vurğulayıb. Qeyd edib ki, 44 günlük müharibədən sonra Azərbaycan Ermənistanla sülhün əldə olunması və sülh sazişinin imzalanması məsələsini gündəmə gətirib. 2022-ci ilin oktyabr ayında başlanan bu proses qarşılıqlı görüşlərlə davam edib. Bu müddət ərzində bir çox görüşlər keçirilib. Ötən ay sülh sazişinin mətninin hazırlanma prosesi başa çatıb. Növbəti mərhələdə sənədin icrasına başlanılacaq və prosesin yekunlaşacağı gözlənilir.

(ardı 4-cü səhifədə)

## Astara dəmiryol terminalı – Şimaldan Cənuba geniş qapı

Səhifə ⇨ 9

## Rusiya–Ukrayna savaşının yeni qurbanları



**Rusiya–Ukrayna savaşında eskalasiya anbaan güclənir. Ağ evin atəşkəsə nail olmaq cəhdləri hələlik real nəticə vermir. Tərəflər raket və dronlarla bir-birinə mümkün qədər çox zərbə vurmağa cəhd edirlər. Bu zaman hər iki tərəfdən itkilərin sayı artır. Təbii ki, dağıntılar da çoxdur.**

(ardı 11-ci səhifədə)

## "Nərimanovçuluğ"un yurdsevər mahiyyəti və faciəsi sonluğu

**Görkəmli ictimai-siyasi xadim, tarixdə 70 il mövcud olmuş Sovet Azərbaycanının ilk lideri, milli maraqlar uğrunda ardıcıl mübariz, maarifçi ədib və humanist həkim Nəriman Nərimanovun anadan olmasından 155 il keçir. Onun həyat və fəaliyyətinin ən çətin, mürəkkəb və faciəli dövrü bolşevik işğalından sonra Azərbaycanda kommunist cildinə girmiş daşnak tör-töküntü və Kreml diktaturası ilə kəskin qarşıdurmada keçmişdir. Bu mübarizə yurdsevər soydaşımıza həyatı bahasına başa gəlmişdir.**

(ardı 6-cı səhifədə)

## İrəvanda KTMT-yə qarşı demarş səngimir





Səhifə ⇨ 4

# “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin iyirmi dördüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin iyirmi dördüncü abzasında “orqan (qurum)” dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 101.6-1-ci və 150.1.14-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 101.6-1-ci və 150.1.14-1-ci maddələrində “orqan (qurum)” dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddə 661, № 11, maddə 1199) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.4-cü bənddə “və iyirmi ikinci” sözləri “, iyirmi ikinci və iyirmi dördüncü” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

“2.6-1. həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin iyirmi dördüncü abzasında “orqan (qurum)” dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

**4** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndə “101.1-4-cü,” sözlərindən sonra “101.6-1-ci,” sözləri, “144.1.4-cü,” sözlərindən sonra “150.1.14-1-ci,” sözləri əlavə edilsin;

4.2. 1.46-cı bənd aşağıdakı redaksiyada verilsin:

“1.46. həmin Məcəllənin 101.6-1-ci, 102.1.33-cü, 106.1.24-cü, 150.1.14-1-ci və 164.1.42-ci maddələrində “orqan (qurum)” dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 aprel 2025-ci il**

# Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənova

**Hörmətli Faiq müəllim!**

Sizi 85 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycanda şahmatın inkişaf etdirilməsi, geniş təbliği və yeni nəsil şahmatçıların yetişməsi işinə mühüm töhfələr vermisiniz. Ölkəmizdə çoxsaylı şahmat yarışlarının uğurlu təşkilində böyük xidmətləriniz vardır.

Dünya şahmat ictimaiyyəti uzun illərdən bəri Sizi 150-dən artıq mötəbər beynəlxalq turnirdə, o cümlədən FIDE Qran-priləri, Ümumdünya Şahmat Olimpiadası və Dünya Kubokunda ədaləti qorumuş nüfuzlu baş hakim kimi tanıyır, təqdir edir və səmərəli fəaliyyətinizə ehtiramla yanaşır.

Azərbaycan şahmat məktəbinin inkişafına töhfələriniz dövlət tərəfindən yüksək qiymətləndirilmiş və Siz dəfələrlə təltiflərə layiq görülmüşsünüz.

Sizə bu əlamətdar gündə ən xoş arzularımı yetirir, uzun ömür və möhkəm can-sağlığı arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 aprel 2025-ci il**

# Cəlilabad rayonunun Sərhədabad–Əliabad–Zəhmətabad–Soltankənd avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Yeddi min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Sərhədabad–Əliabad–Zəhmətabad–Soltankənd avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 aprel 2025-ci il**

# “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 8-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-1.6-cı maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 8-1.6-cı maddəsinə uyğun olaraq, dövlət və yerli özünüidarəetmə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin, publik hüquqi şəxslərin və büdcə təşkilatlarının fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi qaydalarını dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 aprel 2025-ci il**

# Rumıniyalı qonaqlar Ulu öndərin məzarını ziyarət ediblər



**Azərbaycanda rəsmi səfərdə olan Rumıniya Parlamenti Senatının sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 14-də Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib.**

Ziyarətçilər ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyublar.

# Aqroparkların fəaliyyətinin təşkili, idarə olunması və inkişafı sahəsində əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Dövlət tərəfindən aqroparkların yaradılması və aqroparkların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tədbirləri həyata keçirmək səlahiyyəti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilsin.

**2.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

2.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin 3.7-ci bəndinin ikinci cümləsində, 4.3-cü bəndinin üçüncü cümləsində, 5.1.6-cı, 6.1.10-cu, 8.6.6-cı yarımbəndlərində və 8.8-ci bəndində nəzərdə tutulmuş aktları altı ay müddətində qəbul etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddə 1359) ilə təsdiq edilmiş Əlavə 1 — “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 2-ci hissəsinə, 10.1-ci, 10.4-cü və 11.1-ci bəndlərinə “göstərilməsi,” sözündən sonra “aqroparklar və” sözləri əlavə edilsin.

**5** “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822 (Cild I); 2024, № 6 (I kitab), maddə 661) 2.1-1-ci bəndində “aqroparklara münasibətdə isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparka münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, digər aqroparklara münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi” sözləri ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4-cü hissənin “Göstərdiyi xidmətlər” sütununun 2-ci bəndinin üçüncü abzasına “məhəlləsinin və” sözlərindən sonra “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış” sözləri əlavə edilsin;

6.2. 9-cu hissənin “Göstərdiyi xidmətlər” sütununa aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

“4. “Aqrar Tədqiqatlar Mərkəzi” publik hüquqi şəxs tərəfindən aqroparkın (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqropark istisna olmaqla) rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi”.

**7** “Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli 1257 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 27 (Cild I) 2.1-ci bəndində “aqroparkların” sözü “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın” sözləri ilə əvəz edilsin.

**8** “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1370 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”də “səlahiyyətli orqan” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, “idarəedici təşkilat” dedikdə (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqropark istisna olmaqla) Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar Mərkəzi” publik hüquqi şəxs nəzərdə tutulur;

2.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”də nəzərdə tutulmuş idarəedici təşkilatın vəzifələrini və hüquqlarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparka münasibətdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir.”;

8.2. 3.2-ci bənd ləğv edilsin;

8.3. həmin Fərmanla təsdiq edilmiş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin 5.1.3-cü yarımbəndi ləğv edilsin.

**9** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1371 (Cild I); 2024, № 6 (I kitab), maddə 665) ilə təsdiq edilmiş “İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddə “aqroparkların” sözü “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın” sözləri ilə əvəz edilsin;

9.2. 2.1.2-ci yarımbənddə “və yeni iqtisadi zonaların” sözləri “, həmçinin yeni sənaye parklarının və sənaye məhəllələrinin” sözləri ilə əvəz edilsin;

9.3. 3-cü hissə üzrə:

9.3.1. 3.1.2-ci və 3.1.3-cü yarımbəndlərdə “iqtisadi zonaların” sözləri “sənaye parklarının və sənaye məhəllələrinin” sözləri ilə əvəz edilsin;

9.3.2. 3.1.7-ci yarımbənddə “aqroparkların” sözü “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın” sözləri ilə əvəz edilsin və həmin yarımbənddən “, özəl aqroparkın əsasnamə layihəsinə rəy vermək” sözləri çıxarılsın;

9.3.3. 3.2.6-cı yarımbənddə “dövlət tərəfindən yaradılan aqroparklarda” sözləri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkda” sözləri ilə “dövlət tərəfindən yaradılan aqroparkın” sözləri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın” sözləri ilə əvəz edilsin;

9.3.4. 3.2.8-ci yarımbənddə “dövlət tərəfindən yaradılan aqroparklarda” sözləri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkda” sözləri ilə əvəz edilsin;

9.3.5. 3.2.14-cü və 3.2.15-ci yarımbəndlərdə ismin müvafiq hallarında “aqroparklar” sözü ismin müvafiq hallarında “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqropark” sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın “10. Dövlət Proqramına dair Tədbirlər Planı” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 5.2.7-ci yarımbənd üzrə:

10.1.1. “Tədbirin adı”, “aralıq nəticələr” və “yekun nəticələr” sütunlarından “və aqroparkların” sözləri çıxarılsın;

10.1.2. “Digər icraçılar” sütunundan “KTN,” akronimi çıxarılsın;

10.2. aşağıdakı məzmunda 5.2.7-1-ci yarımbənd əlavə edilsin:

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 5.2.7-1. | Aqroparkların fəaliyyətinin təşkili | 2025–2026 | KTN | İN, AQTA | Ərazilərdə kənd təsərrüfatı istehsalı infrastrukturunun inkişafının dəstəklənməsinə dair təkliflər hazırlanması | | Ərazi planlaşdırma sənədlərinə uyğun olaraq aqroparkların yaradılması və istehsalın təşviqi |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 aprel 2025-ci il**

# Əli Əsədovun Rumıniya Senatı sədri ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 14-də Rumıniya Parlamenti Senatının Sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanla görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, söhbətdə Azərbaycan–Rumıniya əlaqələrinin strateji tərəfdaşlıq əsasında dinamik inkişafından məmnunluq ifadə olunub.

Siyasi dialoqun yüksək səviyyədə olduğu da bildirilib, dövlət başçıları və digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulanıb. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın və qarşılıqlı dəstəyin önəmi qeyd edilib.

Parlamentlərarası əməkdaşlığa toxunularaq qarşılıqlı səfərlərin, hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Rumıniya arasında iqtisadi-ticari, investisiya, neft-qaz, "yaşıl enerji", nəqliyyat, dövlət xidmətlərinin göstərilməsi, humanitar və digər istiqamətlərdə əməkdaşlığın genişlənməsi məmnunluqla qeyd edilib.

Eyni zamanda, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub.

*XQ*

# Milli Məclisin Sədri rumıniyalı həmkarı ilə görüşüb



**Aprelin 14-də Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniya Parlamenti Senatı sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxdığı, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin əhəmiyyəti qeyd olunub.

Sahibə Qafarova hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiklərini vurğulayıb, Vətən müharibəsindən sonra regionda mövcud vəziyyət barədə məlumat verib.

Görüşdə Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə apardığı tikinti-quruculuq işləri və Qərbi azərbaycanlıların hüquqlarının bərpasının təmin olunması barədə də danışılıb.

Mirça Abrudean ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlığın daha da inkişafı üçün böyük potensial olduğunu bildirib.

*XQ*

# Qarabağ Universiteti suverenliyimizin bərpasının yetirməsidir



**2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi münasibətilə aprelin 14-də Baş Prokurorluğun və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Ulu öndər Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda konfrans keçirilib. Məclisdə prokurorluq, hüquq-mühafizə və məhkəmə orqanlarının əməkdaşları, təhsil işçiləri, tələbələr, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Konfransı açan Qarabağ Universitetinin rektoru Şahin Bayramov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyinin tam bərpasından sonra Xankəndidə fəaliyyətə başlayan Qarabağ Universitetinin qarşısında dayanan vəzifələrdən bəhs edib. Rektor vurğulayıb ki, universitetin fəaliyyətində Heydər Əliyev irsinin, dövlətçilik prinsiplərinin və suverenlik dəyərlərinin təbliği əsas istiqamətlərdəndir.

Elm və təhsil naziri Emin Əmrullayev Heydər Əliyev irsinin təhsil sistemində milli ideologiyanın və dövlətçilik dəyərlərinin formalaşmasındakı rolunu diqqətə çatdırıb. O bildirib ki, gənc nəslin tərbiyəsi mühüm əhəmiyyət kəsb edir. Hər bir gənc tariximizə ehtiramla yanaşıb onu dərindən mənimsəməli, xüsusən xalqımızın qanı bahasına əldə edilmiş suverenliyimizin qorunmasını özlərinə ən ümdə məqsəd bilməlidirlər.

Baş prokuror Kamran Əliyev ulu öndər Heydər Əliyevin suveren Azərbaycanın hüquqi əsaslarının formalaşdırılmasında müstəsna tarixi rolunu, Qarabağ bölgəsinə və ümumilikdə ərazi bütövlüyümüzə dair prinsipial mövqeyini qeyd edərək, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Baş prokuror bildirib ki, Ümummilli liderin dövlət quruculuğu və hüquqi islahatlar sahəsindəki fəaliyyəti nəticəsində bu gün Azərbaycanda müstəqil, demokratik və hüquqi dövlət bərqərar olub.

Kamran Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olması ilə yanaşı, ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri olduğunu vurğulayıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov Qarabağın suveren Azərbaycan dövləti çərçivəsində inteqrasiyası, dövlət idarəçiliyinin bərpası və bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər barədə məlumat verib, o, Heydər Əliyev irsinin bu prosesdə yolgöstərici rolunu vurğulayıb.

Sonra Qarabağ Universitetinin "Maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi" layihəsinə qoşulmasına dair tərəfdaşlar adından Baş prokurorunun müavini Heydər Məmmədovla həmin təhsil müəssisəsinin rektoru Şahin Bayramov arasında memorandum imzalanıb.

*XQ*

# XİN-də görüş və müzakirələr



**Dünən 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb.**

Azərbaycan–BMT əməkdaşlığının müxtəlif aspektləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub. Ölkəmizin BMT-yə üzv olmasından bəri təşkilatla aparılan qarşılıqlı faydalı əməkdaşlıq, ölkəmizin BMT-nin fəaliyyətində aktiv iştirakı, onun sülhməramlı əməliyyatlarına töhfələri qeyd edilib, bu istiqamətdə perspektivlər nəzərdən keçirilib.

Azərbaycanın ev sahibliyi və sədrliyi ilə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyədə təşkilində təşkilatla olduqca yaxşı qurulmuş əməkdaşlıq məmnunluqla qeyd edilib. Vətəndaşlarımızın öz yurdlarına ləyaqətli qayıdış prosesinə təhdid törədən mina təhlükəsi ilə mübarizə səylərində, humanitar minatəmizləmə fəaliyyətində əməkdaşlıq və dəstəyin əhəmiyyəti vurğulanıb.

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Litvanın xarici işlər nazirinin müavini Yulius Praneviçius ilə də görüşüb.**

Söhbətdə Azərbaycan–Litva ikitərəfli və çoxtərəfli münasibətləri, regional və beynəlxalq vəziyyət müzakirə olunub. İki ölkə arasında iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, humanitar sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğu qeyd edilib, siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan–Ermənistan normallaşma prosesinin gedişatı barədə ətraflı məlumatlandırıb.

Azərbaycan Respublikası və Litva Respublikasının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr də aparılıb. Müzakirəyə Azərbaycan tərəfindən nazir müavini Fariz Rzayev, Litva tərəfindən isə xarici işlər nazirinin müavini Yulius Praneviçius rəhbərlik ediblər.

*XQ*

# Baş Prokurorluğun Xankəndidə əməliyyat müşavirəsi

**Aprelin 14-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Xankəndi şəhər prokurorluğunda Baş Prokurorluğun əməkdaşları, Xankəndi şəhər, Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Zəngilan rayon, eləcə də Ağdam, Füzuli, Kəlbəcər, Qubadlı və Tərtər hərbi prokurorlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.**




Müşavirədə işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquq-mühafizə sisteminin institusional dayanıqlığının təmin olunması, cinayətkarlığa qarşı mübarizənin vəziyyəti və əhalinin hüquqlarının müdafiəsi məsələləri ətraflı müzakirə olunub. Baş prokuror çıxışında həmçinin, işğaldan azad edilmiş ərazilərdə qanunun aliliyinin tam şəkildə təmin olunması istiqamətində qarşıda duran vəzifələri diqqətə çatdırıb. Kamran Əliyev vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə hüquq-mühafizə sisteminin fəaliyyəti dövlətin suverenliyinin və hüquqi təsisatlarının real təcəssümüdür.

Müşavirə çərçivəsində xüsusi vurğulanan məsələlərdən biri də yerli əhali ilə qarşılıqlı etimada əsaslanan hüquq münasibətlərinin qurulması və cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi olub.

*XQ*

# IV Antalya Diplomatiya Forumu başa çatıb

**Türkiyədə keçirilən IV Antalya Diplomatiya Forumu (ADF 2025) başa çatıb.**




Beynəlxalq məclisin yekununda Türkiyənin xarici işlər naziri Hakan Fidan mətbuat konfransı keçirib.

Forumun işini yüksək qiymətləndirən nazir tədbirin sadəcə, geosiyasi məsələlər deyil, bəşəri problemlərə də ev sahibliyi etdiyini deyib: "Üç gün ərzində burada irqçiliklə mübarizə, qadın hüquqlarının qorunması kimi bir çox bəşəri məsələlər müzakirə olundu. Forum əsnasında bir çox ikitərəfli görüşlər, panellər, toplantılar keçirildi. İştirakçılar da öz baxışları çərçivəsində dünyanın müxtəlif bölgələrindən olan həmsöhbətləri ilə görüşmək imkanı əldə etdilər. Bütün bunlar forumumuzun birləşdirici gücünü bir daha nümayiş etdirdi".

Sonra nazir jurnalistləri maraqlandıran sualları cavablandırıb.

Türkiyənin XİN başçısı Azərbaycanla bağlı sualı cavablandıraraq bildirib: "Azərbaycan Prezidenti İlham Əliyev xüsusilə Suriya məsələsində Türkiyə ilə yaxın məsləhətləşmələr aparır. Azərbaycanla Suriyanın inkişafı, iqtisadiyyatı, infrastrukturu, təhlükəsizliyinə birlikdə nə cür töhfə verə biləcəyimizlə bağlı məsləhətləşmələrimiz davam edir. Təbii ki, bu mövzuda Azərbaycanın verdiyi və verəcəyi hər bir töhfə dəyərlidir. Azərbaycanın bu mövzuda Türkiyə ilə koordinasiyalı şəkildə apardığı siyasəti son dərəcə təqdir edirik".

Nazir Türkiyə ilə Azərbaycanın bir çox sahədə əməkdaşlıq etdiyini, Suriyaya dəstək məsələsinin də bu əməkdaşlıqlardan biri olduğunu qeyd edib.

Azərbaycanla bağlı suallardan biri də İsrail ilə Türkiyə arasında Bakıda keçirilən görüş olub. Bunu cavablandıran nazir deyib: "Azərbaycan bizim üçün qardaş ölkədir və bu təmaslara yaradılan şəraitə görə təşəkkür edirik".

Qeyd edək ki, üç gün davam edən IV Antalya Diplomatiya Forumuna 100-ə yaxın dövlət və hökumət başçısı, nazirlər, deputatlar, QHT-lər, dünyanın tanınmış ictimai-siyasi xadimləri, mətbuat qurumlarının nümayəndələri də daxil olmaqla, dünyanın 155 ölkəsindən, ümumilikdə, 6 mindən artıq iştirakçı qatılıb. Prezident İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ADF-də iştirak ediblər.

Tədbirdə bir çox qlobal hadisələrlə yanaşı, Cənubi Qafqazdakı son vəziyyət, Azərbaycanla Ermənistan arasında imzalanacaq Sülh sazişi, Qərbi Azərbaycan və azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıdışı, iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin rolu, o cümlədən Bakıda keçirilən COP29, Türk Dövlətləri Təşkilatının fəaliyyəti kimi ölkəmizi maraqlandıran məsələlər də müzakirə edilib.

Azərbaycan forumda Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş heyətlə təmsil olunub.

Xatırladaq ki, Antalya Diplomatiya Forumunun əsas məqsədi dünyada baş verən böhranların həllinə diplomatiya vasitəsilə töhfə verməkdir.

*XQ*

# Azərbaycan "Ekspo 2025"də



**Yaponiyanın Osaka şəhərində "Həyatımız üçün gələcək cəmiyyəti formalaşdıraq" mövzusunda "Osaka, Kansai Ekspo 2025" dünya sərgisi işinə başlayıb.**

Rəsmi açılışda Yaponiya İmperatoru Naruhito, bu ölkənin Baş naziri Siqeru İsiba, Beynəlxalq Sərgilər Bürosunun Baş katibi Dmitriy Kerkentzes, dünya sərgisində təmsil olunan ölkələrdən yüksəksəviyyəli qonaqlar iştirak ediblər.

155 hektardan çox ərazini əhatə edən "Ekspo 2025"də, ümumilikdə, 165 ölkə və 7 beynəlxalq təşkilat təmsil olunur. Oktyabrın 13-dək müddətdə "Ekspo 2025"ə 28 milyon ziyarətçinin gəlişi gözlənilir.

2000-ci ildən "Ekspo" sərgilərində uğurla təmsil olunan Azərbaycan bu ilki iştiraka böyük əhəmiyyət verir.

Sərgi çərçivəsində Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyonun da açılışı olub. Mərasimdə Azərbaycanın "Ekspo 2025" üzrə Baş komissarı, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, "Ekspo 2025"in Azərbaycan üzrə ölkə meneceri Şimzi İzumi, Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə və digər qonaqlar iştirak ediblər.

Azərbaycan pavilyonu "Ekspo 2025"in "Həyatları əlaqələndirmək" bölməsində yerləşməklə "Dayanıqlı inkişafa doğru yeddi körpü" mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından qaynaqlanıb. Burada Azərbaycanın zəngin mədəni irsi, texnoloji inkişaf və davamlı inkişafa bağlılığı, eyni zamanda, dialoqa açıqlığı nümayiş olunur. Çünki dialoq və əlaqələr vasitəsilə aydın, harmoniya dolu və dayanıqlı gələcəyə nail olmaq mümkündür.

Üç mərtəbədən ibarət pavilyonun fasadının dizaynı Azərbaycan ənənələrini, incəsənətini və sənətkarlığını təcəssüm etdirən şəbəkə motivlərindən yaradılıb. Ziyarətçilər pavilyondakı səyahətlərinə nəhəng yeddi gözəlin hər birinin təcəssüm etdirdiyi müxtəlif istiqamətlərlə - mədəni müxtəliflik, milli irs, ənənəvi incəsənət, memarlıq inciləri, davamlı inkişaf, təbii sərvətlər, idman və turizm sahələri ilə tanışlıqla başlayırlar.

Pavilyonda Azərbaycan və Yaponiyanı tərənnüm edən üç ağac da yer alıb. Bunlar "Azərbaycan ağacı", "Yapon ağacı", Azərbaycan və yapon ağaclarının sintezi olan "Dostluq ağacı"dır.

*XQ*

# “Mirzoyansayağı” diplomatiya

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın Xarici işlər naziri onu da qeyd edib ki, bu proseslə ölkəmiz uzun illər fəaliyyəti dayandırılmış bir məsələnin yenidən işə salınmasına başlayır. Ermənistan da bu gerçəyi qəbul edir. Bununla bağlı Ermənistan konstitusiyasında lazımi dəyişikliklər ediləcək ki, bu dəyişikliklər torpaqlarla bağlı haqq iddiaları məsələsinin həllinə gətirib çıxaracaq. C.Bayramov əlavə edib: “Artıq Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması ilə bağlı başqa manevələrlə qarşılaşacağımızı düşünmürük. Azərbaycanla Ermənistan sülh baxımından çox uğurlu bir dövrü geridə qoyub”.

Göründüyü kimi, nazir C.Bayramov ölkəmizin sülh müqaviləsi ilə bağlı prinsipial mövqeyini bir daha gündəmə gətirib. Buna cavab olaraq A.Mirzoyanın səsləndirdikləri isə həyasızlıqdan başqa bir şey deyil. Erməni nazirin sözlərindən gələn qənaət budur ki, tarixi düşüncələrə bağlı qalmaq doğru deyil, gələcəyə baxılmalıdır. O bildirib ki, məsələyə hər iki tərəfə fayda verəcək qurucu baxışla yanaşmaq lazımdır: “İndi biz fikrimizi bu günə və gələcəyə cəmləşdirməliyik. “Kim daha çox insan öldürdü” kimi keçmişə bağlı iddiaları davam etdirmək yalnız yeni mübahisələrə səbəb olacaq. Biz, ilk növbədə, bölgədə sülhü inşa etməliyik”.

Mirzoyan sülh sazişinin mətni ilə bağlı ortaq fikrə gəlindiyini, artıq sənədin imzalanma tarixi və yerinin müəyyənləşdirilməli olduğunu bildirib. Diqqəti Azərbaycanın barış müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasına dəyişiklik tələbinə yönəldən erməni nazirin fikirlərindən gələn qənaət budur ki, ölkənin konstitusiya məhkəməsi bu məsələni həll edib: “Teorik olaraq, ziddiyyətin aradan qaldırılacağına inanıram. Bu, ölkələrimiz üçün bir başlanğıc nöqtəsidir. Əlbəttə, sülh prosesi ilə bağlı məsələlər davam edəcək və biz bununla bağlı danışmağa, əməkdaşlıq imkanları yaratmağa çalışacağıq. Biz bununla dünyaya bir mesaj vermək istəyirik: “Keçmişi qazımağın, ona bağlı qalmağın və buna vaxt sərf etməyin mənası yoxdur. Xalqlarımızın ortaq gələcəyi və rifahı üçün çalışmalıyıq. Bunun üçün bütün lazımi imkanlar qarşımızdadır. Biz birlikdə gələcək mərhələyə keçməyə hazırıq və bu, özü ilə sülh içində əməkdaşlıq imkanlarını gətirəcək”.

*



Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. A.Mirzoyanın diplomatik həyasızlığının hansı məqsədə xidmət etdiyini sonda diqqətə çatdıracağıq. Hələlik isə onu bildirək ki, Ermənistan konstitusiya məhkəməsinin ötən ilin sentyabrında ölkənin işğalçı mahiyyətə və ərazi iddiasına söykənən İstiqlaliyyət bəyannaməsinin əsas qanunda yer almayan müddəalarının etibarsızlığına dair qərar verib. O da məlumdur ki, bir məhkəmə qərarı konstitusiyanın bəyannaməyə istinad xüsusunu aradan qaldıra bilməz. Ona görə belə yanaşma yetərsizdir. Ermənistan konstitusiyasının ölkənin İstiqlaliyyət bəyannaməsindən qurtuluş yolu ümumxalq səsverməsi, yəni referendumdur. Mirzoyanın təbirincə desək, keçmişdə ilişib qalmaq referenduma getməmək, sözügedən bəyannaməni Ermənistanın hüquq sistemindən çıxarmamaq naminə çarpışmadır.

Ümumən, erməni XİN rəhbərinin “keçmişdə ilişib qalmaq” məntiqi yerinə düşmür. Birincisi, heç də hər şeyi keçmiş prizmasından qiymətləndirmək olmur. Çünki hələlik hadisə və proseslərə bu baxımdan yanaşmaq tezdir. Məsələn, Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu ildə verdiyi “Qarabağ Ermənistandır və nöqtə” bəyanatına necə keçmiş kimi yanaşasan? Onun komandasında təmsil olunmuş müdafiə nazirinin “Yeni ərazilər uğrunda yeni müharibə!” şüarına da belə münasibət mümkünsüzdür.

İkincisi, 2020-ci ilin 44 günlük müharibəsi, savaşdan sonra Ermənistanın həyata keçirdiyi mina terroru, Paşinyanın beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirdikdən sonra “Qarabağın özünün seçkili hakimiyyəti var” deyərək sərsəmləməsi də yüz il əvvəlin olayı deyil. Bu gün Ermənistanda silahlı qüvvələrimizin 2023-cü ilin sentyabrında gerçəkləşdirdiyi lokal xarakterli antiterror tədbirlərindən söz açılarkən “Qarabağın işğalı” amili üzərində dayanılır. Bildirilir ki, Azərbaycan Qarabağ ermənilərinə qarşı etnik təmizləmə həyata keçirib. Görəsən, antiterror tədbirlərindən əvvəl rəsmi Bakının dəfələrlə etdiyi xoş çağırışlar niyə yada düşmür? Axı rəsmi İrəvan təmsilçilərinin Qarabağ ermənilərinin taleyi ilə oynayıb beynəlxalq miqyasda anti-Azərbaycan təbliğatına girişmələri, ölkəmizə qarşı antipatiya yaratmaq cəhdləri uzaq tarixin olayları deyil.

Üçüncüsü, biz bir xalq olaraq keçmişi yada salmazdıq. Çox böyük ehtimalla deməzdik ki, İrəvan qədim Azərbaycan torpağı olub və onun Ermənistana verilməsi tarixi xəyanətdir. Onu da bildirməzdik ki, Zəngəzur Sovet Rusiyası tərəfindən erməni varlığına peşkəş edilib. Həmçinin, Zəngəzurdan sonra torpaqlarımızdan ermənilərə hədiyyələrin edildiyindən söz açmaz, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın içinə qoyulmuş saat mexanizmli bomba kimi xarakterizə etməzdik. Ancaq bütün bunları vurğulayırıq. Ona görə ki, erməni millətçilərinin iştahası sonsuz idi. 1988-ci ildə “Miatsum” hərəkatının baş qaldırdığını və həmin hərəkatın yekun nəticədə nəinki Qarabağın, eləcə də digər yurd yerlərimizin işğalı reallığını doğurduğunu gördük. Uzun illər aparılmış Qarabağ danışıqlarının mahiyyətcə üzləşdiyimiz ədaləti heçə saymağa, həqiqətlərimizi pərdələməyə, işğal amilini ikinci plana atmağa hesablandığı da diqqətimizdən yayınmadı. Otuz ilə yaxın müddətdə müxtəlif erməni liderləri Azərbaycan xalqının heysiyyatı ilə oynadılar. Özlərinə əmin tərzdə bir qarış torpağı belə geri qaytarmayacaqlarını bildirdilər. Onlar “Ohanyan” xətti yaratdılar, onun keçilməzliyi ilə bağlı mif uydurdular.

Erməni qövmünün tarixi Azərbaycan – türk torpaqlarına köçürülmələri başımıza gətirilən faciələrin kökünü bilmək üçün xatırlanmalıdır. Aydın dərk edilməlidir ki, sözügedən köçürmənin məqsədi xristian erməni bufer zonası yaratmaq, türk dünyasını parçalamaq olub. Bunlar yetməyib Cənubi Qafqazdan türk – müsəlman izini silmək planları işə salınıb. Erməni qövmünün “xidmətlərindən” istifadə edilib. Bu xəstə toplum isə qana susamış yırtıcı kimi davranıb.

Biz 1918-ci ilin mart soyqırımlarını necə unudaq? Axı bu gün də haylar “soyqırımı” deyə dünyaya car çəkir, 1915-ci ildə Osmanlı təbəəsi olan ermənilərin dövlətin bir başından o biri başına köçürülmələrinin beynəlxalq miqyasda insanlıq əleyhinə cinayət kimi qiymətləndirilməsinə nail olmaqdan danışırlar. Heç kəs prosesin nə üçün baş verdiyi barədə soruşmur. Guya, müsəlman türklər xristian ermənilərə qarşı nifrət bəsləyirlərmiş. Necə oldu ki, Osmanlı dövlətində digər qeyri-müsəlman əhali rahat şəkildə ömür sürə bildi, ermənilər yox? Heç kəs bu barədə danışmır. Heç kəs bildirmir ki, həmin ermənilər Osmanlını arxadan vurmağa, təbəəsi olduqları dövləti sarsıtmağa çalışırdılar və buna görə də dövlət onları köçürməklə terror, təxribat yuvasını dağıtmaq məcburiyyətində qalmışdı. Hələ başqa faktları da yada sala bilərik.

Sözümüz ondadır ki, keçmiş bütün bunlara görə yada düşür. Həm də ona görə yada düşür ki, müasir Ermənistan özü keçmişdə ilişib qalaraq tipik erməni xəstəliyindən xilas ola bilmir. Hazırda dünya üzrə “eramızın 31-ci ilində xristianlığı qəbul etmişik. Bizə müsəlman Azərbaycanı ilə mübarizədə kömək edin” çağırışına bənzər deyimlərlə “silahlanmış” ikinci bir toplum yoxdur, ola da bilməz. Çünki heç bir toplum özünü bu cür aşağı səviyyəyə endirməz.

Bu gün erməni cəmiyyəti “dənizdən dənizə böyük Ermənistan” cəfəngiyyatını yuxu halından dövlət ideologiyası səviyyəsinə gətirirsə, rəsmi İrəvanın təmsilçiləri deyə bilməzlər ki, keçmişdə qalmaq düzgün deyil. Ermənistan və erməni qövmü nəinki keçmişin yuxuları ilə yaşayır və ondan qidalanır, ümumiyyətlə, keçmişdə oturub, irəliyə doğru bir addım da ata bilməyib. Bu geri düşüncənin, avantürist mahiyyətin icraçısı kimi A.Mirzoyanın etdiyi isə ancaq asan oxunan hiylələrdir.

*

Bəli, erməni XİN rəhbəri Antalya Diplomatik Forumu çərçivəsində keçirilmiş paneldə də hiyləgərlik etdi. O, ziddiyyətləri geridə qoymaq üçün özündə cəsarət və iradə tapmış Avropa cəmiyyətlərində formalaşmış klişeləri təkrarlayaraq iz azdırmaq istədi. Məlumdur ki, “köhnə qitə”də “keçmiş keçmişdə qalıb, gələcəyə baxmaq lazımdır” deyiminin populyar olduğu məlumdur. Mirzoyan bu populyarlıq üzərinə siyasi sərmayə yatırmağa çalışdı.

Sonda erməni XİN rəhbərinin Antalyadakı “manifesti”ni hansı məqsədlə səsləndirdiyinə diqqət yetirək. İki məqsəd var. Birincisi, ümumən Azərbaycan əleyhinə antipatiya yaratmaq, ölkəmizi, guya, barış istəməyən tərəf kimi göstərmək. İkincisi, rəsmi Bakının sülh müqaviləsi ilə bağlı irəli sürdüyü şərtlərin dünya birliyi tərəfindən əhəmiyyətsiz sayılmasına, beynəlxalq aləmin ölkəmizə sazişi imzalamaq üçün təzyiq göstərməsinə nail olmaq. Nəzərə alaq ki, Azərbaycan həm təfərrüatını açıqladığımız Ermənistan konstitusiyasına dəyişiklik edilməsini, həm də ATƏT-in Minsk qrupunun rəsmən ləğvini tələb edir. Daha doğrusu, İrəvanın Bakı ilə birlikdə onun ləğvi üçün müraciət ünvanlamasını.

Hər iki tələbimizdə məqsəd Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiasını sıradan çıxarmaqdır. Nəinki Paşinyan administrasiyasının timsalında Ermənistan dövləti, bütövlükdə, erməni cəmiyyəti yekdilliklə ərazi iddiasına düşməyəcəyini, Qarabağ azarından xilas olduğunu sübuta yetirməlidir. Bunun yolunu isə açıqladıq – referendum. Ancaq tamamilə əks prosesləri görürük. Ermənistanda revanşist – şovinist təmayüllər varlığını saxlayır. Rəsmi İrəvan səmimiyyətdən uzaq davranışı ilə həmin təmayülləri qoruyur. A.Mirzoyan Antalyada onları qorumaqdan başqa heç nə etmədi. Deməli, Ermənistan Azərbaycanla real və dayanıqlı sülhə razı deyil. Ölkənin növbəti müharibəyə hazırlaşdığını isə onun sürətli silahlanma xətti və şərti sərhəddə “dilə gətirdiyi” güllə səsləri göstərir.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# İrəvanda KTMT-yə qarşı demarş səngimir

**Ermənistanda fəaliyyət göstərən “ARAR” sivilizasiya araşdırmaları fondu ictimai məsələlərlə bağlı sosioloji sorğu keçirib. Sorğu daxili ictimai-siyasi vəziyyətlə yanaşı, Ermənistanın təhlükəsizliyi ilə bağlı məsələləri də əhatə edib.**

Verilən suallardan biri ölkənin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə gələcək münasibətləri barədə olub. Respondentlərin 47,6 faizi hesab edir ki, Hayastan KTMT-dən dərhal çıxmalıdır. Rəyi soruşulanların 47,5 faizi bildiriblər ki, mütləq təşkilatda qalmalıdırlar. 4,8 faizi isə cavab verməkdə çətinlik çəkib. Yada salaq ki, həmin fondun 2024-cü ilin oktyabrında keçirdiyi sorğunun nəticəsinə görə 50 faiz Ermənistanın KTMT-dən çıxmasını dəstəkləyib. 39,9 faiz əleyhinə olub, 10 faiz isə cavab verməkdə çətinlik çəkib.

Avrasiya İqtisadi İttifaqından (AİI) çıxıb-çıxmamaq məsələsinə gəlincə, respondentlərin 40,5 faizi Ermənistanın bu strukturu tərk etməli olduğunu bildirib. 53,3 faizi AİI-də qalmalı olduqlarını düşünür, 6,2 faizi isə cavab verməkdə çətinlik çəkib.

“Ermənistanın yaxın gələcəkdə Avropa İttifaqına üzv ola biləcəyinə inanırsınızmı?” sualına iştirakçıların 53,9 faizi müsbət, 43,4 faizi mənfi cavab verib. 2,7 faizi isə cavab verməkdə çətinlik çəkib. Bu suala 2024-cü ilin oktyabr ayında 56,4 faiz müsbət, 41,1 faiz mənfi cavab vermiş, 2,5 faiz isə cavab verməkdə çətinlik çəkdiyini bildirmişdi.

ABŞ-la imzalanan strateji tərəfdaşlıq sazişinin Ermənistanın təhlükəsizlik problemini həll edib-etməyəcəyi sualına respondentlərin 47,2 faizi müsbət, 48,7 faizi isə mənfi cavab verib. Bildirilib ki, sorğu kompüter dəstəkli telefon müsahibəsi metodundan istifadə etməklə, Ermənistanın 18 yaşdan yuxarı erməni dilini bilən vətəndaşları arasında keçirilib.

Sorğuda əksini tapan bir sıra məsələlərə verilən cavablar onlara münasibət bildirməyi zəruri edir. Əvvəlcə onu qeyd etmək lazımdır ki, Ermənistan dövlətinin Azərbaycana qarşı 30 ildən çox apardığı işğalçılıq siyasəti zamanı güvəndiyi təsisatlardan biri də məhz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adlanan həmin bu qurum idi. Xüsusilə, ölkənin sabiq prezidentləri Robert Koçaryan və Serj Sarkisyan KTMT-yə torpaqlarını azad etməyə başlayacağı təqdirdə Azərbaycanı dayandıracaq qüvvə, Ermənistanın “imdadına yetişəcək” ələhiddə qüvvə kimi yanaşırdılar. Onların uzun illər ərzində sülh danışıqları adı altında imitasiya siyasəti aparmaları həm də KTMT-yə arxayın olmalarından irəli gəlirdi. Ancaq bir neçə gün öncə doqquzuncu ildönümü tamamlanan 2016-cı ilin Aprel döyüşləri göstərdi ki, Ermənistan heç kimə arxayın olmamalıdır. Doğrudur, həmin döyüşlər qısa müddət davam etdi. Amma ordumuz keçilməz sədləri yarmaqla, müəyyən ərazilərimizi azad etməklə, düşmənə canlı qüvvə və hərbi texnika sarıdan böyük zərbələr vurmaqla döyüş əzmini göstərdi. Azərbaycanın hərbi-siyasi rəhbərliyi düşmənə sonuncu şans verdi və sübut etdi ki, ordumuz müzəffər yürüşə qalxsa, onun qarşısını nə KTMT, nə də Ermənistanın digər havadarları saxlaya bilər.

Qarşı tərəf isə bu xəbərdarlıqdan nəticə çıxarmadı və yenə də öz bildiyi kimi davrandı. Ermənistan hakimiyyəti Aprel döyüşlərini cəmiyyətə “qələbə” kimi sırımağa çalışsa da, erməni xalqı ciddi məğlubiyyətlə üzləşdiyini başa düşdü. Bundan sonra Serj Sarkisyanın cəmiyyətdə dayaqları möhkəm laxladı və o, Aprel döyüşlərindən iki il sonra “məxməri inqilab” yolu ilə hakimiyyətdən uzaqlaşdırıldı.

Ancaq yenicə hakimiyyətə gələn Nikol Paşinyan da Sarkisyanın yolu ilə getməyi üstün tutdu. O, eyforiyaya qapılaraq ciddi siyasi yanlışlıqlara yol verdi və faktiki olaraq, danışıqlar prosesini pozdu. 2020-ci ilin iyulunda şərti sərhədin Tovuz istiqamətində baş verən döyüşlər də Azərbaycanı təxribata çəkmək cəhdi idi. İrəvan istəyirdi ki, Azərbaycanın Ermənistan ərazisinə “müdaxiləsi” görüntüsünü yaratsın və KTMT-nin potensialından istifadə etsin. Bu da baş tutmadı. Ordumuz sərhədi keçməmək şərti ilə düşmənin layiqli cavabını verdi və onu yerinə oturtdu. Beləliklə, KTMT-ni prosesə cəlb etmək səyləri boşa çıxdı. Buna baxmayaraq, KTMT amili Ermənistan rəhbərliyinin təhtəlşüurunda qalmaqda idi. Ermənistanın KTMT çərçivəsində quruma üzv ölkələrlə (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan) əməkdaşlığı, İrəvanın mövqeyinə görə, onun milli təh-lükəsizliyinin vacib elementi idi. Bu arxayınlığın nəticəsi olaraq, rəsmi İrəvan yeni təxribatlar törətdi və İkinci Qarabağ müharibəsinin baş verməsi üçün hər şeyi etdi.

Azərbaycanın hərbi gücü ilə müqayisəedilməz dərəcədə zəif olan və bunu yaxşı bilən Ermənistanın hərbi-siyasi rəhbərliyi məhz xarici havadarlarına, o cümlədən KTMT-yə arxalanaraq, Moskvanın onlara ciddi dəstək verəcəyini düşünərək hərbi avantüraya getdi. Burada bir haşiyə çıxaraq qeyd etmək lazımdır ki, KTMT-nin rəsmi İrəvana dəstəyi hər zaman qurumun nizamnaməsi əsasında olub. Nizamnamənin yurisdiksiyasına Ermənistanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış əraziləri daxildir. Paşinyan iqtidarı isə özünü, necə deyərlər, ərköyün uşaq kimi apardı və KTMT-ni istər Azərbaycanla müharibə dövründə, istərsə də ondan sonra nizamnamədən kənar hərəkətlərə sövq etmək istədi. Ancaq bütün bunlar nəticə vermədi. Ordumuz başladığı işi uğurla sona çatdırdı.





Müharibə dövründə təşkilatdan istədiyi dəstəyi ala bilməyən İrəvanla KTMT arasında ilk dərin çatlar o vaxt yarandı. Müharibədən sonrakı dövrdə isə Ermənistanla Azərbaycan arasında üç ciddi insident oldu. 2021-ci ilin mayında iki ölkənin şərti sərhədində – Qaragöl ətrafında gərginlik yaşandı. Ölkəmizin torpaqları 30 il işğal altında qaldıqdan sonra beynəlxalq səviyyədə tanınmış sərhədlərimizi bərpa etməyimiz Ermənistanda “Azərbaycan hərbçilərinin sərhədi pozub 3,5 km ölkənin içərisinə doğru hərəkət etməsi” kimi qəbul olundu. Həmin ilin noyabrın 15-16-da 44 günlük müharibədən sonra ilk dəfə şərti sərhədin Kəlbəcər istiqamətində qanlı döyüşlər baş verdi. Nəhayət, 2022-ci ilin sentyabrın 12-14-də gecə saatlarında Ermənistan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətməsi ilə postmüharibə dövrünün ən ciddi hərbi toqquşması yaşandı. Bu hadisələrin hər biri baş verən günlərdə və ondan sonrakı dövrdə Ermənistan ən yüksək səviyyədə KTMT-yə müraciət edərək təşkilatı qəti tədbirlər görməyə çağırdı. KTMT isə öz nizamnaməsi çərçivəsində hərəkət etdi, təmkinli davrandı və İrəvanın avantürasına getmədi.

Onu da qeyd edək ki, həm 2021-ci ilin noyabr, həm də 2022-ci ilin sentyabr döyüşləri Ermənistanın KTMT-yə rotasiya qaydasında sədrlik etdiyi dövrdə baş verib. Təşkilatdan umduğu köməyi ala bilməyəndən sonra Ermənistanla KTMT arasında münasibətlərin daha ciddi soyuqluq mərhələsi başladı. İş o yerə gəlib çatdı ki, Paşinyan KTMT-nin ali orqanı olan Kollektiv Təhlükəsizlik Şurasının 2023-cü ilin noyabrın 23-də İrəvanda keçirilən sammitinin bəyannaməsini imzalamaqdan imtina etdi. Sammit Ermənistan üçün tam fiasko ilə nəticələndi.

Beləliklə, bu gün Ermənistanda keçirilən sorğuda respondentlərin 47,6 faizinin KTMT-dən dərhal çıxmalı olduqları bildirmələri hayların İkinci Qarabağ müharibəsi dövründə KTMT-nin, guya, onlara dəstək verməmdiyini hələ də “həzm edə” və öz aləmlərində onu bağışlaya bilmədiklərinin göstəricisidir.

AİI-də qalıb-qalmamaq məsələsinə dair rəyi soruşulanların böyük əksəriyyətinin Ermənistanın bu strukturda qalmalı olduğunu “hə” deməsi isə Hayastan vətəndaşlarının lazım gələndə rasional düşünə bildiyinin göstəricisi kimi qiymətləndirilə bilər. Onlar başa düşürlər ki, Ermənistan Avropaya doğru hərəkət edərsə, o zaman ölkə ilə onun AİI üzrə müttəfiqləri arasında iqtisadi münasibətlər kompleksinə yenidən baxmaq lazım gələcək. Bu isə Ermənistanda insanların həyat səviyyəsinə öz əksini tapacaq. Yəni, əhalinin yaşayışı pisləşəcək.

“Ermənistanın yaxın gələcəkdə Avropa İttifaqına üzv ola biləcəyinə inanırsınızmı?” sualına hayların 43,4 faizinin mənfi cavab verməsi reallıqdan xəbər verir. Onlar başa düşürlər ki, Aİ sevdası xam xəyaldır. Məsələn, Ermənistanla AİI-nin əsas ölkəsi Rusiya arasında 2024-cü ildə ticarət dövriyyəsinin həcmi 12,7 milyard dollar, 27 dövlətin birləşdiyi Avropa İttifaqı ilə isə bundan 10 dəfə az–cəmi 2 milyard dollar təşkil edib. Güman etmək olar ki, bu rəqəmlər ermənilərin sorğuda verdikləri cavablara da öz təsirini göstərib və onlar reallıqdan çıxış ediblər.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki,** İrəvan həm Vətən müharibəsi,



həm də sonrakı illərdə şərti sərhəddə insidentlərin baş verdiyi günlərdə KTMT-yə kömək üçün müraciət edib, lakin lazımi dəstəyi ala bilməyib. Bütün bunlar isə Ermənistan hakimiyyətinin müxtəlif mənsubları, o cümlədən baş nazir səviyyəsində KTMT-yə yönəlik ittihamların meydana çıxmasına səbəb olub. Bu mövqe sadə vətəndaşlar arasında da yayğındır. Nəticədə onlar sorğuda bu cür mövqe ifadə ediblər.

Onun sözlərinə görə, Ermənistan parlamentinin Aİ-yə üzvlüklə bağlı qanunu qəbul etməsinə və prezidentin bunu imzalamasına baxmayaraq, aydındır ki, bu, qısa müddətdə həll olunacaq məsələ deyil. Onun sözlərinə görə, Ukrayna, Gürcüstan və Moldova da illərdir bu barədə sənədlər qəbul ediblər. Rəsmi Kiyev, hətta Avroatlantik məkana inteqrasiya istəyinə görə Rusiya ilə müharibəyə başlamaq məcburiyyətində də qaldı: “Amma nə Ukrayna, nə Gürcüstan, nə də Moldova Avropa İttifaqına üzvlüyə qəbul olunub. Yaxın illərdə qəbul edilmək perspektivi də görünmür. Ermənistanı da belə bir perspektiv gözləyir”.

Politoloq qeyd etdi ki, Paşinyan bu addımı atmaqla, sadəcə, xarici siyasətdə istiqamətini göstərmiş olur. Amma, bu, o demək deyil ki, Ermənistan AİI-dən çıxacaq. Çünki Ermənistanın əsas ticarət tərəfdaşları Rusiya və AİI-nin digər üzvləridir. Yəni Ermənistanın elə bir məhsulu yoxdur ki, onu Avropa İttifaqında sata bilsin. Rusiya ilə Ermənistan arasında siyasi münasibətlərdə suallar olsa da, ticarət mübadiləsi sahəsində heç bir problem yoxdur. Tam əksinə, son bir ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 3-4 dəfə artıb. Ermənistan bundan imtina etməz. Sadəcə, Ermənistan Avropa İttifaqı ilə siyasi yaxınlığını göstərmək üçün belə bir qərar verib. Amma Rusiyada da anlayırlar ki, bu, həll olunacaq məsələ deyil”.

*Səxavət HƏMİD*
*XQ*

# Azərbaycan – Gürcüstan əməkdaşlığı regionda sülhə və tərəqqiyə xidmət edir

**(əvvəli 1-ci səhifədə)**





Onu da qeyd edək ki, iki ölkə arasında əlaqələr bütün sahələri əhatə edir. İqtisadi, ticari, mədəni və siyasi əlaqələrin davamlı inkişaf etməsi məhz Gürcüstanla Azərbaycan arasında mövcud olan sıx əməkdaşlıq və möhkəm dostluq ənənələrini daha da gücləndirir. Hazırda Gürcüstan Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Tbilisinin ən böyük iqtisadi tərəfdaşı sırasında Bakı beşinci sıradadır. İndiyədək Azərbaycan şirkətləri tərəfindən Gürcüstana, ümumilikdə, 3,6 milyard ABŞ dolları dəyərində sərmayə yatırılıb. İki ölkə arasında ticarət dövriyyəsi 1,3 milyard dolları keçib. Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ildən-ilə ixrac artır. Ümumi ixracın da 10 faizi Gürcüstanın payına düşür.

Bir faktı da yada salmaqda fayda var. 2008-ci ilin yanvarında Gürcüstan müəyyən səbəblər üzündən qazsız və elektrik enerjisiz qalanda, Azərbaycan Gürcüstana kömək etdi. Azərbaycan qazı Tbilisi üçün Ermənistana nəql edilən güzəştli Rusiya qazından daha ucuz satıldı.

Ölkələrimiz arasında mədəni əlaqələr də inkişaf edir. Gürcüstanda ARDNŞ və Heydər Əliyev Fondu xeyriyyəçilik və sosial-mədəni layihələri həyara keçirir. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi nəticəsində Tbilisi şəhərində M.F.Axundzadənin adını daşıyan 73 saylı, Marneuli şəhərindəki 7 saylı, Qardabani şəhərindəki 3 saylı, Dmanisi rayon mərkəzindəki 2 saylı məktəblər əsaslı şəkildə təmir olunub istifadəyə verildi. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən Qardabani rayonunun Qaracalar kəndində, Bolnisi rayonunun Hasanxocalı və Cəfərli kəndlərində, Dmanisi rayonunun Kirovka kəndində müasir tipli yeni məktəb binaları tikildi. SOCAR-ın Gürcüstan nümayəndəliyi tərəfindən Marneuli rayonunun Alget və Lecbəddin kənd orta məktəbləri, Qardabani rayonunda uşaq bağçası və Nəzərli kənd orta məktəbi təmir edildi, Marneulidə "Çay evi" inşa edildi, Tbilisi şəhərində yerləşən M.F.Axundzadə adına Azərbaycan mədəniyyət muzeyi və görkəmli ictimai-siyasi xadim və yazıçı Nəriman Nərimanovun ev muzeyi təmir edilərək istifadə verildi. Bu proses bu gün də davam edir.

Yada salaq ki, Gürcüstanda Azərbaycan dilində bir sıra mətbuat orqanları nəşr olunur. Tbilisidə H. Əliyev adına Azərbaycan Dram Teatrı, fəaliyyət göstərir. Gürcüstan azərbaycanlılarının dil, mədəniyyət, təhsil və s. sahələrdə mövcud problemlərinin həllindən ötrü həm rəsmi, həm də ictimai vasitələrlə zəruri işlər həyata keçirilir. Gürcüstanda yaşayan azərbaycanlıların təhsil haqqının ödənilməsində SOCAR əsas rol oynayır.

Bu arada Gürcüstan Xarici işlər naziri Maka Boçorişvili də iki ölkə arasında əməkdaşlığa toxunub. Bildirib ki, Azərbaycanla Gürcüstanı mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir: "Strateji tərəfdaşlıq təkcə iki ölkənin deyil, bütövlükdə, Cənubi Qafqazın inkişafına xidmət edir".

Boçorişvilinin sözlərinə görə, Azərbaycan Gürcüstanın əsas tərəfdaşıdır və bu əməkdaşlıq bölgənin inkişafı üçün vacibdir: "Sülh və təhlükəsizlik bizim üçün əsas faktorlardır. Azərbaycan və Ermənistan arasında sülh sazişi bütün region üçün mühüm əhəmiyyət daşıyır".

Nazir deyib ki, bu gün Azərbaycan və Gürcüstan hansısa böyük güclərin diktəsi ilə yox, ölkə maraqlarına uyğun şəkildə siyasət həyata keçirir. Onun sözlərinə görə, Gürcüstan Ermənistan və Azərbaycan arasında istənilən səviyyədə dialoqun aparılmasına vasitəçilik etməyə hər zaman hazır olub və indi də hazırdır: "Gürcüstanın ənənəvi olaraq hər iki qonşusu ilə – Azərbaycan və Ermənistanla yaxşı münasibətləri olub...Təbii ki, sülh içində yaşayan Cənubi Qafqaz hər birimizin arzusudur. Bölgəmizin çox ciddi bir potensiala sahib olduğunun da fərqindəyik. Bu potensialdan tam şəkildə istifadə etmək istəyiriksə, o zaman bölgəyə davamlı bir sülh gətirməliyik. Elə bu səbəbdən də biz, hər şeydən əvvəl, iki ölkə arasında sülhü böyük məmnuniyyətlə qarşılayırıq və Azərbaycan ilə Ermənistan arasındakı sülh sazişinin çox böyük bir uğur olacağına inanırıq".

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycana səfəri də iki ölkə arasında münasibətlərin inkişafına xidmət edir. Səfər zamanı Gürcüstan – Azərbaycan strateji tərəfdaşlığının əsas istiqamətləri müzakirə ediləcək. Avropa İttifaqının Gürcüstana tətbiq etdiyi sanksiyalar və hədələr fonunda rəsmi Tbilisi üçün enerji təhlükəsizliyi və regiondaxili sabitlik, enerji axınlarının təminatı olduqca mühüm məsələdir. Kavelaşvili də regionda sülh və əməkdaşlıq təşəbbüslərinə qoşulmaq niyyətində olduğunu gizlətmir.

Azərbaycana səfərdən sonra Mixeil Kavelaşvili Ermənistana gedəcəyi də Tbilisinin tərəfsiz vasitəçi rolunu gücləndirmək istəyini göstərir.

Onu da bildirək ki, İkinci Qarabağ müharibəsi zamanı ərazilərin azad edilməsindən sonra Cənubi Qafqazda münasibətlərin normallaşdırılması və sülhün bərqərar olunması üçün bir fürsət yaranıb. Bunun üçün Ermənistan konstitusiyasında lazımi dəyişikliklər edilməli, ATƏT-in Minsk qrupunu buraxılmalıdır. Gürcüstan da Ermənistan və Azərbaycan arasında bu istiqamətdə dialoqun aparılmasına vasitəçilik etmək istəyir.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirdi ki,** Azərbaycan və



Gürcüstan daim bir-birinin mövqelərini dəstəkləyir: "Yeni geosiyasi reallıqlarda Gürcüstanın xüsusi rolunun olduğunu görürük. Azərbaycan və Gürcüstan arasında enerji əməkdaşlığı təkcə ikitərəfli deyil, həm də qlobal miqyasda xüsusi əhəmiyyət daşıyır, regionda sabitlik, inkişaf və təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayır. Hazırda Azərbaycan Gürcüstanın xarici investorları sırasında öz liderliyini qoruyub saxlamaqla ticarət dövriyyəsini və regional əməkdaşlığı daha da inkişaf etdirir. Bildirilib ki, 44 günlük müharibə fonunda regionda müşahidə olunan yeni reallıqlara və dinamik dəyişikliyə baxmayaraq, hər iki ölkə strateji əməkdaşlığı saxlamaqda, beynəxalq platformalarda bir-birini dəstəkləməkdə davam edir.

Gürcüstan bir məkandır, orada Ermənistandan və Azərbaycandan olan nümayəndələr görüşürlər, müzakirələr aparırlar. Müzakirələr zamanı, həmçinin yeni yaranmış geosiyasi vəziyyət də nəzərə alınır. İnanıram ki, regionda sabitliyin və təhlükəsizliyin təminatında ikitərəfli əməkdaşlığımızın rolu böyük olacaq".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ortaq maraqlar üzərində strateji tərəfdaşlıq

**Gürcüstanla iqtisadi əlaqələrin inkişaf etdirilməsi ölkəmizin qarşısında duran prioritet istiqamətlərdən biridir. Azərbaycan–Gürcüstan strateji tərəfdaşlığının son illər ərzində keyfiyyətcə yeni mərhələyə yüksəlməsi də bunun bariz ifadəsidir.**



Respublikamız əsas ticarət tərəfdaşlarından olan bu dost və qonşu ölkəyə ən çox sərmayə yatırması ilə diqqət çəkir. Eyni zamanda, hazırda hər iki ölkənin birgə həyata keçirdiyi meqa layihələr uğurlu regional əməkdaşlıq nümunəsi olaraq Cənubi Qafqazın transformasiyasına xidmət edir, bölgənin enerji və nəqliyyat xəritəsinin dəyişməsinə, Avropaya "yaşıl" enerji körpüsünün salınmasını sürətləndirir.

Bakı–Tbilisi–Qars dəmir yolunun tam gücü ilə işə salınması üçün birgə səylər göstərilib. Azərbaycanın əlavə sərmayəsi və Gürcüstan tərəfinin səyləri nəticəsində bu yolun yükaşırma qabiliyyəti 1 milyon tondan 5 milyon tonadək artırılıb. Orta Dəhlizin mühüm halqası olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin isə ildə 15 milyon tondan 25 mln tona qədər artırılması istiqamətində fəal işin aparılmasına başlanılıb.

İki qonşu və dost dövlətin səmərəli əməkdaşlığını ifadə edən digər iqtisadi göstəricilər də diqqət çəkir. Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin bu il yanvarın 17-də Azərbaycana işgüzar səfəri çərçivəsində Azərbaycan və Gürcüstan liderlərinin mətbuata bəyanatlarında da bu, öz ifadəsini tapıb. Prezident İlham Əliyev nitqində bir sıra mühüm tarixi faktları diqqətə çatdıraraq Azərbaycanın Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyduğunu bildirib: "Azərbaycan Gürcüstan tranziti vasitəsilə hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ixrac ildən-ilə artır. Keçən il bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi – ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Sizin partiyanızın qələbəsi bütövlükdə Cənubi Qafqazın bundan sonra sabit region olması üçün xüsusi əhəmiyyət daşıyır və biz bu qələbəyə Sizin dostunuz, qardaşınız kimi sevinirik".

Azərbaycan ilə Gürcüstanın tarixi İpək Yolu üzərində yerləşməsi və ölkələrimiz tərəfindən birgə irimiqyaslı enerji və nəqliyyat layihələrinin icra edilməsi regionumuzdan keçən yük axınının həcmini dəfələrlə artırıb. Azərbaycan–Gürcüstan əməkdaşlığında nəqliyyat-logistika sahəsi xüsusi yer tutub. Ölkələrimiz arasında yuxarıda vurğulandığı kimi, uğurlu regional əməkdaşlıq münasibətləri çərçivəsində irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin (Bakı–Tbilisi–Ceyhan (BTC) neft boru kəməri, Bakı – Tbilisi–Ərzurum (BTƏ) qaz boru kəməri, Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu) reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan regional əməkdaşlıqda BTC neft kəmərini birinci, BTƏ qaz layihəsini ikinci, BTQ dəmir yolu layihəsini isə üçüncü vacib addım kimi qiymətləndirib: "Ancaq bu həmrəylik sadəcə regional əməkdaşlıqla məhdudlaşmır. Eyni zamanda, bu dəmir yolu üzərindəki hər bir stansiya bir sülh stansiyası, dostluq və həmrəylik stansiyası olaraq dünyaya mesajını verir".

Ötən müddətdə Şərq–Qərb Dəhlizinin əsas alternativi olan BTQ dəmir yolu marşrutu Azərbaycan ərazisindən yükdaşımaların həcminin xeyli artmasında mühüm rol oynayıb. Gürcüstanın Poti və Batumi limanlarına alternativ kimi, BTQ dəmir yolu Aralıq dənizindəki limanlara və Avropa bazarlarına fasiləsiz çıxışı təmin edib, Şərq–Qərb dəhlizi boyunca əlaqəni daha da yaxşılaşdırıb.

Qeyd edilən faktlar onu göstərir ki, bu gün Gürcüstan – Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə mühüm uğurlarla diqqət çəkir. İki ölkə enerji, nəqliyyat və ticarət sahələrində sıx əməkdaşlıq edir, BTC qaz və BTQ dəmir yolu layihələri bu əməkdaşlığın parlaq nümunəsidir. Başqa sözlə, Azərbaycan və Gürcüstan arasında enerji əməkdaşlığı təkcə ikitərəfli deyil, həm də qlobal miqyasda xüsusi önəm daşıyır. Belə ki, BTC, Cənub Qaz Dəhlizi kimi mühüm enerji layihələri Avropanın enerji təhlükəsizliyinə töhfə verir. BTQ dəmiryolu isə Şərq və Qərb arasında qısa və səmərəli alternativ bağlantı yaradır.

BTQ dəmir yolunun fəaliyyəti ilə bundan sonra yolboyu yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq, yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. BTQ dəmir yolu sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Yolun istifadəsi zamanı turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı–Tbilisi–Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkəmizin geosiyasi əhəmiyyətini artıracaq və Azərbaycan üçün əlavə imkanlar yaradacaq.

Şərqlə Qərb arasında Dəmir İpək Yolu kimi adlandırılan BTQ dəmir yolu Azərbaycanın Orta Dəhliz üzərində yerləşən ən önəmli nəqliyyat hablarından birinə çevrilməsinə xidmət edir. Bu məqsədlə respublikamızda dəmir yolu və liman infrastrukturu davamlı olaraq təkmilləşdirilir, gömrük xidmətində şəffaflığın və operativliyin artırılması üçün islahatlar həyata keçirilir. Təsadüfi deyil ki, Azərbaycan mövcud potensialı sayəsində bu gün qlobal çağırışların öhdəsindən uğurla gələ bilir.

Strateji əhəmiyyətə malik BTQ marşrutu Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Dövlətimizin başçısı hələ BTQ dəmir yolunun açılışı mərasimində çıxışı zamanı layihənin qlobal əhəmiyyət daşıyacağı mesajını verərək infrastrukturun tarixi qlobal təşəbbüs olduğunu deyib. Bu layihə ölkələri bir-birinə daha yaxın edir, bölgədə sabitliyin, təhlükəsizliyin təminatına mühüm təsir göstərir, eyni zamanda, layihə iştirakçısı olan ölkələrin iqtisadi imkanlarını artırır.

Azərbaycan və Gürcüstan Orta Dəhliz, Cənub–Qərb və digər beynəlxalq tranzit marşrutlarının inkişafında fəal əməkdaşlıq edir. Səmərəli əlaqələr nəticəsində hər iki ölkənin ərazisindən keçən tranzit yükdaşımaların həcmi də getdikcə artır. Yeri gəlmişkən, BTQ dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılmasının nəzərdə tutulması Orta Dəhlizin daha da gücləndirilməsi məqsədi daşıyır.

Azərbaycan Dövlət Neft Şirkətinin müvafiq qurumu Gürcüstanın qazla təminatında mühüm rol oynayır və neftin topdan və pərakəndə satışını, neft və neft məhsullarının, eləcə də mayeləşdirilmiş qazın ölkəyə idxalını reallaşdırır, neft terminalı və anbarlarının tikintisini gerçəkləşdirir. Şirkət Gürcüstandakı neft satışının 72 faizinə, dizel satışının isə 61 faizinə nəzarət edir, bundan başqa, Kulevi neft terminalı da şirkətin ixtiyarındadır.

Azərbaycan–Gürcüstan əməkdaşlığında energetikanın ənənəvi sahələri ilə yanaşı, "Yaşıl enerji dəhlizi" layihəsi də xsusi yer tutur. Bu məsələdə də hər iki ölkə Avropa dövlətləri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətə böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm Azərbaycan–Gürcüstanın, həm də tərəfdaş ölkələrin enerji təhlükəsizliyi güclənəcək.

Yeri gəlmişkən, 2022-ci il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i xüsusi qeyd edilməlidir. Bu sənəd yeni dünya düzəninin formalaşdığı bir mərhələdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinin təmin olunması prosesi ilə bağlı zəncirin ən vacib həlqələrindən biridir. Mühüm əhəmiyyətə malik həmin saziş hər iki ölkənin yalnız regionda deyil, eyni zamanda, Avropa ölkələri ilə münasibətlərində etibarlı tərəfdaş olmasının daha bir sübutudur.

Xatırladaq ki, bu saziş çərçivəsində Gürcüstan və Rumıniya arasında min meqavatadək gücə malik 1195 kilometr uzunluqda elektrik ötürmə xəttinin çəkilməsi və rəqəmsal birləşdirici kabelin uzadılması planlaşdırılır. Kabel Azərbaycanda istehsal olunan "yaşıl" elektrik enerjisinin Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya və oradan Avropanın digər hissələrinə nəqli üçün nəzərdə tutulur.

İstər Azərbaycanda, istərsə də Gürcüstanda diqqətçəkən inamlı inkişaf bu ölkələrin ictimai-siyasi sabitliyinin, hər iki dövlət vətəndaşlarının hökumətə olan dəstəyinin məntiqi nəticəsidir. Çünki sabitlik və hökumətin aydın gələcəyə yönələn baxışları bir çox önəmli layihələr icra edilməsinə imkan verir, həm iqtisadiyyatın dinamik artmasını, infrastruktur layihələrinin uğurla icrasını və əhalinin rifahının getdikcə yaxşılaşmasını şərtləndirir.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan hazırda 11 ölkəyə Gürcüstan tranziti vasitəsilə təbii qaz ixrac edir və bu rəqəmin artacağı gözlənilir. Bu əməkdaşlıq dost ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Statistikaya əsasən, Gürcüstanın təbii qaz istehlakının 80 faizdən çoxu respublikamızın payına düşür. Eyni zamanda, ölkələr "yaşıl" enerji layihələrində də birgə addımlar atır. Xüsusilə bərpa olunan enerji mənbələri üzərində işlər hər iki hökumətin məsuliyyətini və gələcək inkişaf perspektivlərini ortaya qoyur. Azərbaycan və Gürcüstan arasında bağlanılan 123 sənəd isə iki ölkə arasındakı münasibətlərin möhkəm hüquqi bazasını təşkil edir. Bu sənədlər əməkdaşlığın müxtəlif sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi üçün möhkəm zəmin yaradır.

***V.BAYRAMOV***
***XQ***

## Təqvim yada salır

# “Nərimanovçuluğ”un yurdsevər mahiyyəti və faciəli sonluğu

## *Siyasət girdabına düşmüş doktorun daşnak tör-töküntüsü ilə barışmaz mübarizəsi*

**(əvvəli 1-ci səhifədə)**

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra respublikada real hakimiyyət Rusiya bolşevik partiyasının tərkib hissəsi olan AK(b)P Mərkəzi Komitəsinin əlində cəmləşmişdi. Bu orqanın tərkibində ədib və doktor Nəriman Nərimanovun başçılıq etdiyi Azərbaycan kommunistləri gürcü-erməni çoxluğuna nisbətdə azlıq təşkil edirdi.

Belə bir vəziyyətin yaranması Moskvanın yerli müsəlman kadrlarına müəyyən inamsızlığının nəticəsi idi. Bu fakt Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri N. Solovyovun 1920-ci ildə sovet lideri V. Leninə ünvanladığı “Çevrilişdən sonra iki ay (may-iyun) ərzində Azərbaycanda siyasətimiz” adlı məktubunda xüsusilə qeyd olunurdu. O, Azərbaycan İnqilab Komitəsinin azərbaycanlılardan ibarət olduğunu müsbət qiymətləndirərək, eyni zamanda, qeyd edirdi ki, “heç kimə sirr deyil ki, rəhbər rol gürcü-erməni qrupu üstün olduğu AzKP MK-yə məxsusdur”.

Milli işlər komissarı İ.Stalin N.Solovyovun məktubu ilə tanış olduqdan sonra 17 sentyabr 1920-ci ildə V. Leninə qaytararaq belə bir qeyd etmişdir: “Məncə, ümumiyyətlə, düzdür. Bir çox səbəblərə görə gürcülər və ermənilər açıq-aydın iyrənc oldular (mən işçilərdən danışıram), onları başqa millətlərin işçiləri ilə əvəz etmək lazımdır və sonunculara tatarların (azərbaycanlıların-İ.N.) təkcə maraqlarına deyil, həm də adətlərinə diqqətli olmaq haqqında direktiv vermək lazımdır”.

Azərbaycan SSR-də sovet hakimiyyətinin ilk illəri siyasi kursun daimi axtarışı və dəqiqləşdirilməsi ilə xarakterizə olunurdu. Respublikanın gələcək inkişaf yollarının seçilməsi ilə bağlı partiya rəhbərliyində davamlı qarşıdurmalar şəraitində köklü dəyişikliklər aparılmışdı. Nəticədə, siyasi rəhbərlikdə “sol” və “sağ” kommunistlərin iki qanadı meydana gəlmişdi.

N.Nərimanovun rəhbərlik etdiyi bir qrup kommunist hesab edirdi ki, respublikaya nisbətən geniş hüquqlar verilməlidir, dəyişikliklər həyata keçirilərkən yerli şərait, milli adət-ənənələr, dil və dini xüsusiyyətlər nəzərə alınmalı, respublikaya rəhbərliyi yerli millətdən olan kommunistlər həyata keçirməlidirlər. S. Sərkis, A. Mikoyan və digər “solçular”ın nümayəndələri daxili siyasətdə yeganə düzgün yolu sinfi düşmənlərə qarşı amansız mübarizədə, Rusiyada tətbiq olunan təcrübə və modelə uyğun “hərbi kommunizm” siyasətinin tətbiqində görürdülər.

Bu qruplaşmalar arasındakı aramsız mübahisələr, onun mərkəzində olan və inadkar “Qoca” adlandırılan Nərimanovun qəbul edilməməsi İ.Stalin və Q. Orconikidzenin səbr kasasını doldurmuşdu. Bundan əvvəl – 16 avqust 1919-cu ildə Sovet Rusiyasının Xalq Xarici işlər komissarı G.Çiçerinə ünvanladığı teleqramda İ. Stalin N. Nərimanovu geniş siyasi perspektivi olmayan “dekorasiya” adlandırmışdı. Hələ Azərbaycanın sovetləşməsi ərəfəsində israrla Moskvadan N. Nərimanovun Bakıya göndərilməsini xahiş edən Q. Orconikidze isə 20 sentyabr 1920-ci ildə RSFSR Xalq Komissarları Sovetinin sədri V. Leninə teleqramda açıq şəkildə yazırdı: “Qoca heç nəyə yaramır ...o, zibildir”.

N.Nərimanovun xalq arasında nüfuzu isə kifayət qədər böyük idi. Amma tezliklə onun Azərbaycandan təcrid olunması üçün rahat forma tapılmışdı. 1922-ci ilin yanvarında RK (b)K Mərkəzi Komitəsinin Siyasi Bürosu N. Nərimanovu Cənubi Qafqaz respublikalarının digər hökumət başçıları ilə birlikdə diplomatik danışıqlara təsir göstərməyəcəkləri və bəzən ümumiyyətlə, iştirak etməyəcəkləri Genuya konfransına gedən Sovet nümayəndə heyətinin tərkibinə daxil etdilər. Genuyadan qayıtdıqdan sonra N. Nərimanov Tiflisdə daimi iştirakını tələb edən ZSFSR Şurası Rəyasət Heyətinin üç sədrindən biri təyin edildi.

1923-cü ilin yanvarında RK (b)K Mərkəzi Komitəsinin Siyasi Bürosu N. Nərimanovu Tiflisdən geri çağırdı və Moskvada ali vəzifə vermək adı altında onu ən yüksək, lakin sovet standartlarına görə heç bir nüfuzu olmayan dövlət vəzifəsinə - Cənubi Qafqaz respublikalarını təmsil edən SSRİ MİK-nin həmsədri vəzifəsinə təyin etdi. Belə yerdəyişmələrlə Moskva N.Nərimanovu Azərbaycandan təcrid etməyə və onun Vətənə bağlayan bütün əlaqələrini qırmağa çalışırdı.

Lakin bunu başa düşən N. Nərimanov 1923-cü ilin iyun ayından etibarən RK (b)P Mərkəzi Komitəsinə gizli sənəd kimi Stalinin və surətləri L. D. Trotski və K. B. Radekin ünvanına məruzə göndərdi. Daha sonra – 24 dekabr 1923-cü ildə və 27 may 1924-cü ildə N. Nərimanov həmin məruzəyə daha iki yazı əlavə etdi. Görünür, məktubun əlyazması 1923-cü ilin aprel və ya may aylarında tərtib edilmişdir. Çünki həmin vaxt həbs olunmuş Rusiya türk kommunistlərinin liderlərindən biri olan Mirsəid Sultan-Qəliyevin dindirilməsi ilə bağlı istintaq sənədlərindən məlum olur ki, Nərimanovun məktubu artıq bir neçə həftədir müsəlman milli kommunistlər arasında dolaşırdı.

Nərimanovun məruzə forması daşıyan məktublarında bolşevik hakimiyyətinin partiya-dövlət və xarici siyasət münasibətləri məsələlərinə geniş yer verilmişdir. Məktublarda N.Nərimanov Azərbaycanda milli-dövlət quruculuğu və yerli şəraitin xüsusiyyətləri, ali partiya-dövlət orqanlarında kadr siyasəti, fəhlə-kəndli münasibətləri, milli münasibətlərdə əyintilər və s. kimi mühüm məsələlər barədə öz fikrini bildirmişdi. Məktublar yüksək emosional yükə malik idi, bu da onların məzmununda ardıcıllığın pozulması, fərdi mühakimələrin parçalanmasına səbəb olmuşdu.

Eyni zamanda, Nərimanovun məruzəsi partiya polemikası ilə zəngindir və 1920-ci illərin əvvəllərində Azərbaycan SSR-də partiyadaxili mübarizənin bütün kəskinliyini bizə çatdırır. Ola bilsin ki, N. Nərimanovun məruzəsində baş verən hadisələr və onlarda iştirak edən insanlar, Azərbaycanın ayrı-ayrı partiya rəhbərlərinin fəaliyyəti haqqında bir çox fikirləri subyektiv xarakter daşıyır və onun müəllifinin iddialılığı, partiya-dövlət rəhbərliyində mübahisə və şəxsi düşmənçilik mühiti yaratmağa çalışdığı təəssüratı yaradır. Lakin məruzədə bir çox acı həqiqətlər var ki, bu da, ilk növbədə, hakimiyyət sahibi olan, Azərbaycan xalqının hüquqlarını kobudcasına tapdalayan şəxslərin hərəkətlərinə və davranışlarına qarşı yönəldilmişdi.

N.Nərimanovun məruzəsində əsas tənqid obyektlərindən biri XX əsrin 20-ci illərində AK (b) P Bakı Komitəsinə ardıcıl olaraq rəhbərlik etmiş erməni kommunistləri – Anastas Mikoyan, Sərkis Sərkisov (Danilyan) və Levon Mirzəyan olmuşdular. Onların fəaliyyətinin ümumi xarakteristikasını verən Nərimanov, ilk növbədə, bu üçlüyün milli məsələnin həllində buraxdığı kobud səhvləri qeyd etmişdir. Onları Azərbaycanda kommunizm bayrağı altında daşnak siyasəti aparmaqda ittiham edən N. Nərimanov çevrilişdən 2,5 il sonra Mikoyan, Sərkisov və Mirzəyanın rəhbərlik etdikləri BK-nın işini yoxlamağa çağırırdı.

Hələ 1919-cu ilin fevralında N. Nərimanov yazırdı: “Daşnaklar otuz illik siyasi fəaliyyətlərində hər kəsə göstəriblər ki, “Böyük Ermənistan” arzularını həyata keçirmək üçün istənilən rəngi qəbul etməyə və istənilən maska taxmağa hazırdırlar. Əgər indi Qafqazda sovet sistemi qurulacaqsa, daşnaklar dərhal öz maskalarını dəyişəcəklər və bu dəfə kommunist olaraq yenidən Azərbaycanın başında olacaqlar”.

Buna görə də N.Nərimanov Azərbaycan SSR-də işlədiyi ilk günlərdən ermənilərin məsul vəzifələrə təyin olunmasına qarşı çıxış edirdi ki, 1918-ci ildə Azərbaycan ərazisində tam hakimiyyətə can atan S. Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin erməni bolşevik-daşnak birliyinin Azərbaycan əhalisinə qarşı törətdiyi soyqırımı təkrarlanmasın. Cənubi Qafqazın keçmişi, müsəlmanların yığıncaqlarında dəfələrlə edilən müraciətlər N. Nərimanovu bu nəticəyə gəlməyə məcbur etmişdir. Lakin N.Nərimanov yazdığı kimi, İ.Stalin və Q. Orconikidze Azərbaycan kommunistlərinə güvənmədən Azərbaycanın taleyini ermənilərə tapşırmışdılar.

Bolşeviklər Rusiyada hakimiyyətə gəldikdən sonra, Kreml liderləri Bakının və onun neft rayonunu Sovet Rusiyasının ərazisi elan etmişdilər. Azərbaycanın sovetləşməsinin ilk günlərindən Moskva əsasən qeyri-azərbaycanlılardan ibarət olan Bakı partiya təşkilatını özünün Azərbaycanda əsas dayağı hesab edirdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə isə Bakıdan kənarda rəhbər orqan rolu ayrılmışdı. Eyni səbəbdən qeyd etmək olar ki, Azərbaycan Kommunist Partiyasının Bakı komitəsinin katibi vəzifəsini 1933-cü ilə qədər qeyri-azərbaycanlılar tuturdu.

N.Nərimanov Azərbaycanda sovet quruculuğunun nəticələri barədə 15 sentyabr 1921-ci il tarixli V. Leninə ünvanladığı məktubda qeyd edirdi ki, müsəlman kommunistlərin əksəriyyəti inqilabi dövrdə vaxtlarının çox hissəsini qəzalara (fəhlələri kəndlilərlə əlaqələndirmək üçün) sərf etdikləri üçün “Bakının fəhlə rayonları 1919-cu ilə qədər bizim üçün düşmən olan partiyaların sıralarında olan gənc kommunistlərin əlində idi”. N. Nərimanovun daha sonra qeyd etdiyi kimi, “bu şəxslər hadisələrin gedişatını yaxşı nəzərə aldılar və Müsavat hökumətinin dağılması və Bakıda Sovet hakimiyyətinin bərpası onlara aydın oldu. Nə etməli idilər? Cildlərini dəyişərək, gizli təşkilatımıza daxil oldular ki, Bakıda çevrilişdən sonra məlum rol oynasınlar”.

N.Nərimanov Mikoyanı da belə kommunistlərə aid edirdi: “O, bilirdi ki, mənim Azərbaycanda necə nüfuzum vardır. Çevriliş baş verdikdən sonra, bu asan hiss olunmağa başladı, həm də Mikoyan dedi: “Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin... Nərimanovun təsirindən qorxmamalıyıq, çünki fəhlələr bizim əlimizdə olacaq, o isə görüntü üçün lazım olacaq”.

Nərimanovun yazdığı kimi, bu məqsədlə Bakı komitəsinin katibi olan “Mikoyan Bakı Komitəsinin şəxsində müxalifət yaradır ki, mənim fəaliyyətim millətçi təmayül olmasın”. Mikoyanın daşnak keçmişinə işarə edən N. Nərimanov onu 1918-ci il hadisələrinin səhvlərini təkrarlamaqda günahlandırırdı. Mikoyanın özü də 1918-ci ilin martında Bakı Sovetinin hərbi dəstələrinin tərkibində Bakıda müsəlman əhalisinin soyqırımında iştirakı faktını gizlətmirdi.

Bu qarşıdurmada N.Nərimanov və A.Mikoyan müxtəlif düşərgələrdə dayanırdılar. Fəhlələrin rəğbətini qazanmaq üçün Mikoyan böyük və kiçik burjuaziyaya ayrılmadan tam müsadirənin tərəfdarı idi. N.Nərimanov 1920-ci ilin sentyabrında B.Şahtaxtinskiyə yazırdı ki, bunun üçün “evlərə girmək, müsəlman qadınların paltarında brilyant axtarmaq, müsəlman qadınların qulaqlarından sırğaları qoparmaq lazım idi”.

N.Nərimanov yazırdı: “Maraqlı burasıdır ki, Mikoyandan sonra Sərkis nəyin bahasına olursa-olsun, BEKA-nın katibi olmaq istəyir, o, istədiyinə nail olub Mikoyanın xəttini davam etdirir”. 1920-ci ilin sentyabrında Mərkəz Mikoyanı geri çağırdı, lakin özündən sonra N. Nərimanovun yazdığı kimi, “yalnız cinayət demaqogiyası” hesabına irəli sürülən “Eçmiədzin daşnak seminariyasının şagirdi” adlandırdığı Sərkisi varis qoydu.

Bakı Komitəsinin kadr siyasətini tənqid edən N. Nərimanov Sərkisi günahlandırırdı ki, müsəlman fəhlələri rus və erməni fəhlələri kimi dövlət quruculuğunda iştirak etmirdilər. 1921-ci ilin sentyabrında V. Leninə yazdığı məktubda N. Nərimanov qeyd edirdi ki, müsəlman fəhlələr deyirlər “niyə bizi partiyadan çıxardılar və bizim yerimizə gənc, dünənki sosialist-inqilabçıları və möhtəkirləri, yəhudiləri və erməniləri oturdurlar. Lakin Sərkis bu işi susdurdu”.

AK(b)P-nin II qurultayında (16-23 oktyabr 1920) çıxış edən N.Nərimanov burjuaziyaya qarşı müsadirə aparılarkən müsəlman əhalinin adətlərinin və psixologiyasının nəzərə alınmasını təklif edirdi. Kişilərin kostyumlarını, qadınların zinət əşyalarını və hətta alt paltarlarını müsadirəsini tələb edən radikal düşüncəli yoldaşları tənqid etdi.

N.Nərimanovun yazdığı kimi: “Bütün bunlara göz yummaq olmazdı, təftiş təyin edildi. Nəticədə şeylərin düzgün bölüşdürülməməsi, təşkilatçıların hər şeydən qabaq özlərini yaddan çıxarmaması, əsas ilhamverici yol. Sərkisin himayədarlığı altında şeylərin itməsi və i.a. haqqında bir cild iş tərtib edilmiş oldu”. Sərkisi Bakı komitəsi rəhbərliyindən uzaqlaşdırmaq üçün N.Nərimanov ona kommunistlərə ehtiyacı olan Ermənistana getməyi təklif etdi, lakin bu rədd edildi.

Moskvada Sərkisin Azərbaycandan qəti şəkildə geri çağırılması məsələsinin həlli üçün N.Nərimanov 21 fevral 1921-ci il tarixli məktubunda Azərbaycan SSR-in Sovet Rusiyasındakı səlahiyyətli nümayəndəsi B. Şahtaxtinskiyə də müraciət etmişdir. Lakin Stalinin himayəsi sayəsində Sərkis 1921-ci il iyun ayının ortalarına qədər BK katibi vəzifəsinə qayıtmağı bacardı. N. Nərimanov 1921-ci ilin sentyabrında V. Leninə yazırdı: “Azərbaycanda mövcud vəziyyət 18-ci il hadisələrinə gətirib çıxarda bilər".

Nəhayət, Sərkisi onun həmyerlisi şuşalı erməni L.Mirzəyan əvəz edir. 1922-ci ilin yanvarında L.Mirzəyan AK(b)P BK-nın katibi, 1926-cı ilin yanvarında AK(b)P MK-nın katibi (A.Qarayev və Q.Ağaverdiyevlə birlikdə-İ. N.) seçilir və bu vəzifəni 1929-cu ilin iyuluna qədər tutur. Mirzəyanın siyasi tərcümeyi-halında, Mikoyanda olduğu kimi, kifayət qədər qaranlıq səhifələr tapa bilərik.

Mirzəyanın işinin daxili məzmunu Sərkisin işindən heç də fərqlənmirdi. N.Nərimanov bu barədə yazırdı: “Azərbaycanın taleyini manеəsiz müəyyən edən mirzəyanlar Azərbaycanın düşmənlərinə təxribat üçün ən zəngin qida verir. Həqiqətən, görəsən hal-hazırda Azərbaycanda Azərbaycanı təmsil edən partiya vardırmı. Mən təsdiq edirəm: belə bir partiya yoxdur və mirzoyanlar öz iyrənc siyasətlərindən, Azərbaycanı simasızlaşdırmaq siyasətindən əl çəkməyənə qədər də olmayacaqdır”.



N.Nərimanov daha sonra yazır: “Dağlıq Qarabağ Mirzəyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı”. N. Nərimanov xəbərdarlıq etmişdi ki, Dağlıq Qarabağ Ermənistana verildiyi halda Azərbaycan SSR hökumətinin başçısı vəzifəsindən istefa edəcək. N. Nərimanovun qəti mövqeyi 5 iyul 1921-ci il tarixli RK(b)P Mərkəzi Komitəsinin Qafqaz Bürosu Plenumunun qərarının qəbul edilməsində, yəni Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibində qalmasında həlledici oldu. Dağlıq Qarabağın muxtariyyəti məsələsinin yekun həlli Nərimanov artıq Azərbaycandan getdikdən sonra, 1923-cü ildə baş verdi.

N.Nərimanovun “Ucqarlarda inqilabımızın tarixinə dair” adlı məruzəsi SSRİ-nin ali rəhbərliyində əsl partlayışa səbəb oldu. Azərbaycanlıların sıxışdırılması, müsəlman fəhlələrin səbəbsiz olaraq partiyadan kənarlaşdırılması, Azərbaycanın müstəqilliyinin əlindən alınması, Azərbaycan neftinə sovet Rusiyasının tam sahiblik etməsi, Q.Orconikidzenin “canişinlik” siyasəti, hakimiyyətin süngü gücünə saxlandığı kimi məsələlərə düşmən qüvvələr öz etirazlarını bildirmişdilər. Müzakirə zamanı N.Nərimanovun ittiham etdiyi şəxslər onu millətçilikdə, müsavatçıları ətrafına toplamaqda, hətta mahiyyətcə müsavatçı olmaqda günahlandırırdılar.

RK (b)P Mərkəzi Nəzarət Komissiyasının yoxlamasından sonra partiya dilində milli sapınçılığı ifadə edən uzun siyahıda yenisi – “nərimanovçuluq” ifadəsi ortaya çıxmışdır. Bu ifadə uzun illər ərzində milli nomenklatura kadrları üzərində “Damokl qılıncı” kimi asılaraq, mərkəzi rəhbərlikdə onların siyasi sadiqliyinə şübhənin və inamsızlığın olduğunu ifadə edirdi.

Artıq milliyyətçilik mənasını daşıyan “nərimanovçuluq” ifadəsi, daha sonra, 1930-cu illərin “Böyük terroru” illərində Azərbaycanın partiya və dövlət rəhbərlərinə qarşı məhkəmə ittihamlarında istifadə edilmişdi. Vəziyyətin faciəsi onda idi ki, hətta Nərimanovun yerli əleyhdarları da həmin proseslər zamanı bu cür ittihamların qurbanına çevrilmişdilər.

***İlqar NİFTƏLİYEV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun direktor müavini, dosent***

## Tarixdən gələn səs

# Ərzini qədim türk yurdu olub

**Qərbi Azərbaycanın qədim yaşayış məntəqələrindən biri də Ərzini kəndi adlanır. Bu kənd XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, Ermənistan SSR dönəmində 1995-ci ilə kimi isə Ellər (Kotayk, Abovyan) rayonunun inzibati ərazisinə daxil olmuşdur.**

Ərzini kəndi Ellər (Kotayk, Abovyan) rayondan şimal-qərbdə, Zəngi çayının sol sahilində yerləşir. İndi yaşayış məntəqəsi kimi Ərzini kəndi Ermənistan Respublikasında 1995-ci ildə yeni yaradılan inzibati ərazi vahidlərindən biri olan Kotayk vilayətinin tərkibinə daxil edilmişdir. Ellər rayonunda tarixi mənbələrdə Ərzini adında iki toponimə rast gəlinir: Ərzini kəndi; Ərzini kurortu. Ərzini kurortu Ərzini kəndinin ərazisində yaradılmışdır.

İrəvan Universitetndə 1986-cı ildə çap olunmuş “Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti” Ərzini kəndinin bir adının da Sərçəli olduğu qeyd edilmişdir. Bu da kəndin daha qədim tarixə malik olduğunu təsdiq edən amillərdən biridir.

Tarixdə Ərzini kənd kimi ilk dəfə XV əsrdən xatırlanır. 1728-cil tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə isə bu məntəqə Qırxbulaq nahiyəsinə tabe olan yaşayış məntəqəsi kimi qeyd edilmişdir. Həmin dövrdə Ərzini kəndinin illik gəliri 25 min ağça olmuşdur. 1913-cü ildə Tiflisdə nəşr olunmuş D.Paqirevin tərtib etdiyi Qafqazın 5 verstlik xəritəsində İrəvan quberniyasındakı yaşayış məntəqələrindən biri olaraq Ərzini kəndinin adına rast gəlirik. Hətta Ərzini kəndinin adının 1728-cil tarixli mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Ərzin kəndi formasında qeyd edildiyi göstərilir ki, bu da həqiqəti əks etdrir.

Erməni və rus dilində “ə” hərfi olmadığına görə Ərzini toponimi Arzini fonetik formasında sənədlərində əksini tapır. Çox təəssüf ki, Azərbaycan dilində yazılmış ensiklopediya və kitablarda da Ərzini toponimi Arzini (toponimin erməniləşdirilmiş variantı) fonetik formasında tədqiqata cəlb edilmişdir.

Ərzini kəndinin köklü sakinləri azərbaycanlılar olmuşdur. Azərbaycanlılar tarixən burada yaşamışlar. Lakin erməni sosial şəbəkələrində kəndin aysorilər (assuriyalılar) tərəfindən salındığı göstərilir ki, bu da tarixi həqiqətin saxtalaşdırılmasıdır. Əslində aysorilər (assuriyalılar) indiki Ermənistan ərazisinə, o cümlədən Ərzini kəndinə 1826-1828-ci il Rusiya–İran müharibəsinin nəticəsi olaraq 1828-ci il Türkmənçay müqaviləsindən sonra İrandan köçürülüb yerləşdirilmişdir.

Eyni zamanda, Ərzini kəndində, tarixən, aysorilərin yaşadığı qeyd edilir. Elə erməni mənbələrinin özündə kənddə tarixən azərbaycanlıların yaşadığını aydın şəkildə görmək olur. Z.Qorqodyanın “Son yüz ildə Sovet Ermənistanının əhalisi. 1831–1931” kitabında göstərilir ki, Ərzini kəndində digər millətlərlə yanaşı, 1873-cü ildə 96 nəfər, 1886-cı ildə 197 nəfər, 1897-ci ildə 121 nəfər, 1904-cü ildə 439 nəfər azərbaycanlı yaşamışdır. Hətta 1886-cı ildə burada bir nəfər də olsun erməni yaşamamışdır.

Bu statistik məlumata “Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti”ndə də



rast gəlinir. Lakin göstərilən lüğətdə yalnız 1873-cü ildə Ərzini kəndində azərbaycanlıların yaşadığı verilmişdir. Əhalinin kameral siyahıya alınmalarına uyğun olaraq 1886-cı ildə, 1897-ci ildə, 1904-cü ildə kənddə yaşayanlar ümumi şəkildə göstərilmişdir ki, bu da erməni saxtakarlığının ən bariz nümunələrindən biridir.

Azərbaycanlılar tarixi-etnik torpaqları olan Ərzini kəndində 1918-ci ilə kumi yaşamışlar. 1918-ci ildə yaradılan daşnak Ararat Respublikasının yeritdiyi milli ayrı-seçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə, soyqırımına məruz qalaraq doğma yurdlarından deportasiya olunmuşdur. Burada indi ermənilər və aysorilər (assuriyalılar) yaşayır.

Ərzini toponimin əmələ gəlməsi ilə bağlı bir neçə fərziyə mövcuddur. Lakin, fikrimizcə, Ərzini toponimi coğrafi termin mənasını bildirən “ərz” coğrafi termini əsasında formalaşmışdır. Bu söz bir coğrafi termin kimi kürreyi-ərz söz birləşməsində öz izini qoruyub saxlamışdır.

***İbrahim BAYRAMOV,***
***filologiya elmləri doktoru, professor***

# Ülvi sevgilərin zərif ünvanı

## *40 il əvvəl əbədiyyətə qovuşmuş akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə*

**Qadın oxunmamış kitabdır. Onun zərif əlləri ipək saplardan dünyanın ən incə maddi-mədəniyyət incilərini – xalıları cana gətirir. Sabaha ünvanlanmış "sevgi məktubları" toxuyur. Sənət əsərləri yaradır, kitablar, monoqrafiyalar bağlayır. Zəmilərdən taxıl biçir, bağlardan bar yığır, buruqlardan neft çıxarır. Tarı, kamanı, sazı, udu, neyi dilləndirir. Qadın yuvasını isidir, körpəsinə sığal çəkir, övladını Vətən üçün böyüdür.**

Qadın gözəllik, ülviyyət, məhəbbət, sədaqət rəmzidir. Qadın həm də qəhrəmanlıq, ləyaqət və cəsarət simvoludur! Onu sevdikcə, onun qəlbinə yol tapdıqca, dünyanı nura qərq etmək olur…





Mənəvi saflığı, zərifliyi, gözəlliyi, müdrikliyi qəhrəmanlıq və məhəbbət dastanlarında tərənnüm olunan, "Kitabi-Dədə Qorqud" dastanında, "Oğuznamələr"də şəninə boy boylanıb, soy soylanan qadınlarımızın müqəddəsliyindən müxtəlif zamanlarda sənət əsərləri yarandı. Nizaminin "Xəmsə"sindən tutmuş Məhəmməd Füzulinin dünyasından cücərən poetik nümunələr, daşdan yapılıb, tuncdan tökülən abidələr Azərbaycan qadınının müdrikliyini, məğrurluğunu bəşəriyyətə sübut etdi.

Milli dövlətçilik tariximizə adı qızıl hərflərlə yazılan bir dahi şəxsiyyət də var ki, onun ocağında dünyaya gələn övladların hər biri milli-mənəvi dəyərlərimizə xidmətdə bulundu. Bu, Azərbaycanın görkəmli həkim-alimlərindən, dövlət xadimlərindən biri professor Əziz Əliyevdir.

Naxçıvan Muxtar Respublikasının Şərur mahalının Şahtaxtlı kəndində, bu qüdrətli şəxsiyyətin ocağında 1923-cü il aprelin 28-də dünyaya göz açan qızın adını Zərifə qoydular. Sənətin, poeziyanın, milli-mənəvi dəyərlərin qorunduğu, ictimai-siyasi baxışların formalaşdığı bir ailədə böyüyüb boya-başa çatan bu məsum qız genetik kodlarını ata-babalarından aldığı ibrətamiz tərbiyədən, Türk dünyasının qüdrətli xatunlarının duyğularından qidalandı.

Klassik və müasir poeziyanı, Şərq və dünya fəlsəfəsini, milli musiqini gözəl bilsə də, atası professor Əziz Əliyevin yolu ilə gedib təbabəti seçdi. Bu səbəbdən də, 1942-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil oldu. Oranı bitirdikdən sonra Moskvada oftalmalogiya üzrə Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun ixtisaslaşma kursunu keçdi. 1949-cu ildən başlayaraq düz 18 il Azərbaycan Elmi-Tədqiqat Oftalmalogiya İnstitutunda həkim-ordinatordan böyük elmi işçi vəzifəsinədək yol gəldi. 1950-1953-cü illərdə aspiranturada təhsil alan Zərifə xanım, 1960-cı ildə "Traxoma xəstəliyinin sintomisin və onun başqa terapiya metodları ilə əlaqəli müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etdi.

Bu illərdə keçmiş SSRİ-nin başqa cənub bölgələrində olduğu kimi, Azərbaycanda da gözün konyuktivitini və pərdəsini zədələyən, ağır nəticələrə, hətta korluğa gətirib çıxaran traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Elə bir zaman idi ki, bu xəstəliklə bağlı mübarizə üsulları mövcud deyildi. Bu fakt təkcə Azərbaycan təbabəti üçün deyil, SSRİ səhiyyəsi üçün də problem idi.

Doğma xalqının sağlamlığı uğrunda mübarizəyə atılan Zərifə xanım Əliyeva çalışdığı elm ocağı daxilindəki fəaliyyəti ilə kifayətlənmir. Azərbaycanın ən çox traxoma xəstəliyi yayılan rayonlarına səfərlər edir. Praktik – oftalmoloq həkimlərə mühazirələr oxuyur. Xəstələri yaşadıqları ərazilərin xəstəxana və ambulatoriyalarında qəbul edir, onları zülmətdən işığa çıxarırdı.

Traxoma ilə bağlı problemlər həll olunduqdan, bu sahə ilə bağlı tədqiqatlarını yekunlaşdırdıqdan, namizədlik dissertasiyasını müdafiə etdikdən sonra Zərifə xanım oftalmologiyanın başqa problemlərinin elmi araşdırılması ilə sistemli şəkildə məşğul olmağa başlayır. Vərəm, şəkər və qlaukoma xəstəlikləri nəticəsində gözün zədələnmə xüsusiyyətlərinin öyrənilməsinə həsr olunan, əsərləri ilə təbabətin bu ağır sahəsinə yardımçı olan Zərifə xanım 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə oftalmologiya ixtisası üzrə böyük elmi işçi adına layiq görülür. 1967-ci ildə isə atasının adını daşıyan Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunur.

Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, praktiki tibbi fəaliyyətini davam etdirən gənc alim xəstələri təkcə öz klinikasında deyil, digər xəstəxanalarda da qəbul edir, onlara məsləhətlər verir, əməliyyatlar aparır.

Kliniki və nəzəri oftalmologiyanın bir sıra aktual məsələlərinə həsr olunan yeni, uğurlu tədqiqatlara başlayan Zərifə xanım Azərbaycanda kimya sənayesinin genişlənməsi və inkişafı ilə bağlı görmə üzvünə kimyəvi maddələrin təsiretmə mexanizminin praktiki olaraq aşkar edilməsi kimi ciddi işlərin də təməlini qoyur. 1968-ci ildən isə o, peşə oftalmologiyası məsələləri ilə sistemli şəkildə məşğul olmağa başlayır. Peşə xəstəlikləri probleminin həllinə nail olan alim, yod, rezin və neft-kimya sənayesi müəssisələrində işləyənlərdə görmə üzvü və köməkçi aparatın funksiyasına və biokimyasına, mikro və ultra-mikrostrukturuna zərərli peşə faktorlarının təsirinə dair çoxistiqamətli məsələlərlə məşğul olur, yeni klinika və laboratoriyaların təməlini qoyur. Ayrı-ayrı sənaye müəssisələrinin tibb məntəqələrində və sexlərində, xüsusən də Bakı və Sumqayıt şəhərlərinin yod, şin zavodlarının sexlərində parktiki tədqiqat işlərini həyata keçirir.

Bu genişmiqyaslı klinik müşahidələrin və eksperimental tədqiqatların yekunu olaraq, onun bu gün də əhəmiyyətini itirməyən əsərləri və monoqrafiyaları yaranır. 1976-cı ildə Q.Helmhols adına Moskva Göz Xəstəlikləri İnstitutunda "Azərbaycan kimya sənayesini bəzi müəssisələri işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edən Zərifə xanım Əliyeva 1977-ci ildə müsabiqə yolu ilə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının professoru seçilir. 5 il sonra isə kafedranın müdiri kimi fəaliyyətini davam etdirir. Görkəmli alimləri, cavan oftalmoloqları işə cəlb etməklə, öz elmi məktəbini formalaşdırır. Bakı Məişət kondisionerləri zavodunda gözün peşə patologiyasının unikal laboratoriyasının təməlini qoyan Zərifə xanım burada klinik, funksional-diaqnostika şöbələrlə yanaşı, dünyada yeganə olan istehsalatda cərrahiyyə şöbəsini yaradır.

Gözün fiziologiyasında baş verən dəyişiklikləri diqqətlə izləyən Zərifə xanımın təklifi ilə 1979-cu ildə AMEA-nın A.Qarayev adına Fiziologiya İnstitutunda görmə üzvünün patologiyası və fiziologiyası problemi laboratoriyası yaradılır. Zərifə xanımın burada apardığı genişmiqyaslı tədqiqatları nəticəsində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sistemini anatomik-fizioloji təbiəti" kimi bir sıra fundamental məqalə və monoqrafiyaları işıq üzü görür. "Şin istehsalatında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası" kimi kitab və monoqrafiyaları Azərbaycandan kənarda da füksək qiymətləndirilir.

Bu səbədən də 1981-ci ildə Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına Mükafata layiq görülür. Oftalmologiya tarixində ilk qadın alim kimi bu mükafata layiq görülən Zərifə xanım sonrakı fəaliyyətini yaşlı adamlarda görmə qabiliyyətinin zəifləməsinə səbəb olan katarakt xəstəliyinin cərrahi üsulla müalicəsinin təkmilləşməsinə həsr edir.




Bütün həyatını, elmi və pedaqoji fəaliyyətini oftalmologiyanın çoxşaxəli problemlərinə həsr edən Zərifə xanımın gənc həkimlərin, oftalmoloq alimlərin yetişməsində də xüsusi xidmətləri var idi. Zərifə xanım Əliyeva 1983-cü ildə SSRİ Elmlər Akademiyasının həqiqi üzvü seçildi. Qırmızı Əmək Bayrağı ordeninə və "Azərbaycan SSRİ-in Əməkdar elm xadimi" fəxri adına layiq görüldü.

Onun ən böyük mükafatını isə Tanrı özü vermişdi. O, Azərbaycanın görkəmli dövlət xadimlərindən birinin, tibb elmləri doktoru professor Əziz Əliyevin ocağından dünyaya gəlmişdi. Ömrünün 34 ilini milli dövlətçilik tariximizin yenidən yazılmasına, mənəvi dəyərlərimizin qorunmasına və inkişafına həsr edən Heydər Əlirza oğlu Əliyevin həyat yoldaşı və ən yaxın sirdaşı olmuşdu. Ona iki dəfə övlad sevinci bəxş etmişdi. Dövləti fəaliyyətində mənəvi dəstəyinə çevrilmişdi. Həkim, alim, qadın və ana ömrü sürməklə yanaşı, ictimai xadim kimi Azərbaycanın dövlət quruculuğunda fəal iştirak etmişdi. Sənət, mədəniyyət adamlarının dostu, arxadaşı olmuşdu. Dövlət tədbirlərində, elmi konfrans və simpoziumlarda çıxışları ilə əsl Azərbaycan – türk xatununun obrazını yaratmışdı.

Respublikamızda fəaliyyətə başlayan, təməli qoyulan elm, tədris ocaqlarındakı çıxışları ilə təkcə nüfuzlu alim, ictimai xadim deyil, həm də, Azərbaycanın rəhbərinin xanımı kimi şöhrət qazanmışdı.

Onun təşəbbüsü ilə təməli qoyulan elm, tədris ocaqları, muzeylər, kitabxanalar, ən ucqar dağ kəndlərinə çəkilən yollar sənətin, mədəniyyətinin hamisi olan bu qadının Vətən sevgisindən qidalanırdı.

Ümumittifaq "Vestnik oftalmoloqii" jurnalının, Ümumittifaq Oftalmoloqlar Elm Cəmiyyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, Ə.Əliyev adına Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurasının və Baş Cərrahlar Elmi Şurasının üzvü olan Zərifə xanım bütün bu çoxşaxəli ictimai fəaliyyəti ilə yanaşı, Azərbaycan qadını, bir ailənin xanımı idi. Öz dövrünün və sabahın dövlət başçısının xatunu və anası idi. Bu, Zərifə xanıma Tanrının ən böyük lütfü idi.

Zərifə xanım 1923-cü ilin ılıq bir yaz səhərində – aperlin 28-də Şərur mahalında dünyaya gəldi. 1985-ci il aprelin 15-də Azərbaycandan çox-çox uzaqlarda – Moskvada dəfn olundu. 1994-cü ildə mübarək nəşi Vətənə qaytarıldı. Fəxri xiyabanda torpağa verildi.

Həkim, alim, ictimai xadim kimi Zərifə xanım həmvətənlərinin cismani və ruhani aləmdə qəlb sirdaşına, dərd ortağına döndü. Həyata keçirdiyi quruculuq işləri, elmə, mədəniyyətə bəxş etdiyi töhfələr onun adını Azərbaycanın birinci xanımlarının, türkün qüdrətli xatunlarının sırasına yazdı. Adına yollar, bağlar salındı. Bulaqlar çəkildi, məktəblər, səhiyyə ocaqları quruldu. Əməlləri ilə yaddaşlara yazılan Zərifə xanım daşa – yaddaşa çevrilib abidəyə döndü. Məmləkətin çox yerində heykəlləri ucaldı. Ən böyük heykəli, ən müqəddəs abidəni isə o, özü yapmışdı. Onun adı İnsan sevgisi, Xalq məhəbbəti idi. İndi o sevginin və məhəbbətin işığında xariqələr yaradan xalqı, onun cismindən və ruhundan qida verdiyi oğlunun – Azərbaycan Prezidenti İlham Əliyevin simasında üzü sabahlara doğru yol gedir.

Bu işıqlı gələcəyə inamı onun tərbiyə verdiyi, böyütdüyü, öyüd-nəsihəti ilə kamal zirvəsinə ucaltdığı qızı, şərqşünas alim, bəstəkar Sevil xanım Əliyevanın, gəlini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Mədəniyyət Fondunun və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, sevimli nəvələri – Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın çoxşaxəli fəaliyyəti bir qədər də artırır. Bütün bunlar Zərifə xanımın nurunu insanın, insanlığın üstünə səpir!

***Şərəf CƏLİLLİ,***
***yazıçı-publisist***

# Tarixi reallıq və doğru seçim

## Azərbaycan–Çin münasibətlərində dostluq və tərəfdaşlıq mərhələsi



(əvvəli 1-ci səhifədə)

Azərbaycanın Yeni Şərqin yeni lideri Çinlə strateji münasibətlər qurmağa başlaması gələcəyə hesablanmış strateji plan kimi qəbul edilə bilər. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) özünün hüquqi statusunu yüksəltmək, BRICS-ə üzv olmaq yolunda müəyyən addımları atmaqla həmin planı mərhələ-mərhələ həyata keçirməyi hədəfləyir. Hazırda ŞƏT-də və BRICS-də aparıcı ölkə hansıdır? – sualının cavabı birmənalı olaraq – ÇİN-dir.

### Bakı və Pekin daim bir-birinə dəstək verib

Çin və Azərbaycan ölkələrin ərazi bütövlüyü prinsipini qarşılıqlı şəkildə daim dəstəkləyiblər. Nə Pekin Xankəndidəki separatçı “dqr”ı tanıyıb, nə də Bakı Tayvanı Çindən ayrı təsəvvür edib. Yəni, bu məsələdə ölkələr bütün müstəvilərdə bir-birinə qarşılıqlı dəstək nümayiş etdiriblər. İndi isə Azərbaycan–Çin münasibətlərinin müsbət dinamikasını özündə əks etdirən son 10 ilin rəsmi xronikasına nəzər yetirək. 2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olundu. Bu sənəd Azərbaycanla Çin arasında ikitərəfli münasibətlərin yaxın və uzaq perspektivlərini özündə ehtiva etməklə yanaşı, çox böyük siyasi əhəmiyyət kəsb edir.

Buna qədər isə 2015-ci il dekabrın 11-də Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Pekində geniş tərkibdə görüşdən sonra Azərbaycan və Çin arasında 9 sahə üzrə əməkdaşlığa dair sənədlər paketi imzalandı. “Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə”yə Prezidenti İlham Əliyev və ÇXR-ın Sədri Si Cinpin imza atdılar.

Bu sənədlər Prezident İlham Əliyevlə Çin lideri Si Cinpin arasında qarşılıqlı inam və etimada söykənən yüksəksəviyyəli dostluq münasibətlərindən xəbər verir. 2019-cu ilin aprelində Si Cinpinin dəvəti ilə İlham Əliyev II “Bir kəmər, bir yol” Forumunda iştirak etdi, 2022-ci il sentyabrın 15-də isə Səmərqənddə ŞƏT Sammiti çərçivəsində iki ölkə lideri arasında görüş baş tutdu. Həmin görüşlər ölkələr arasında ortaq maraqların dəyərləndirilməsinə, eləcə də dövlət başçılarının şəxsi münasibətlərdə hörmət və səmimiyyətin yaranmasına zəmin oldu.

Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannamədə qeyd olunub ki, tərəflərin strateji tərəfdaşlığı qarşılıqlı hörmətə, bərabərlik, etimad və qarşılıqlı dəstəyə əsaslanır. Azərbaycan və Çin xarici amillərdən asılı olmayaraq bir-birini etibarlı tərəfdaş hesab edir. İki ölkə arasında münasibətlərin ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmətə, daxili işlərə qarışmama prinsiplərinə əsaslanması xüsusi vurğulanmalıdır.

Bu gün Çin vətəndaşları Azərbaycana vizasız gəlmək imkanına malikdirlər. Artıq onlar elektron viza üçün də müraciət etmək məcburiyyətində deyillər. Tezliklə Azərbaycan vətəndaşlarının da bu fürsətdən yararlanacağına ümid edirik. Beləliklə, bu, turistlərin sayını, xalqlar arasında təmasları artıracaq və ictimai diplomatiya öz rolunu oynamağa başlayacaq.

Tam əminliklə deyə bilərik ki, sağlam və möhkəm zəminə malik Azərbaycan–Çin münasibətləri dinamik şəkildə inkişaf edir. Bu tendensiya iqtisadi sahədə özünü qabarıq şəkildə büruzə verir. Azərbaycanın Çin məhsullarının ixracında önəmli rol oynaması rəsmi Pekin üçün böyük əhəmiyyətə malikdir. Azərbaycandan keçən Trans–Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi – Orta Dəhliz bu gün Çin üçün alternativ ixrac baxımından həyati zərurətə çevrilib.

### Ekspert rəyi



**Vüsal QULİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Şərqi Asiya üzrə eksperti**

– Azərbaycan uzun illərdir Şanxay Əməkdaşlıq Təşkilatı və “Bir kəmər, bir yol” təşəbbüsü kimi Şərq əsaslı beynəlmiləl platformalar vasitəsilə Çin ilə çoxşaxəli və konstruktiv əlaqələrini gücləndirir. 2024-cü ildə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi iki ölkə arasında daha sıx inteqrasiyanın formalaşmasına zəmin yaratdı. Hazırda bu strateji tərəfdaşlıq iqtisadi və ticarət əlaqələrindən başlayaraq enerji, nəqliyyat-kommunikasiya sahələrinə, eləcə də yeni nəsil texnologiyalar və rəqəmsal infrastrukturun inkişafına qədər geniş spektri əhatə edir.

Diplomatik münasibətlərin möhkəmlənməsi kontekstində də irimiqyaslı iqtisadi layihələrin icrası iki ölkə arasında prioritet məsələlərdən birinə çevrilib. İqtisadi siyasətin əsas istiqaməti kimi xarici sərmayə axınının təşviq edilməsi fonunda Azərbaycan ərazisində Çin mənşəli şirkətlərin iri investisiya və texnologiya layihələrində iştirakı üçün optimal şərait yaradılır. Çinin Azərbaycanla alternativ enerji mənbələri üzrə əməkdaşlıq qurması üçün geniş imkanlar mövcuddur.

Azərbaycanın bərpaolunan enerji potensialı, xüsusilə zəngin Günəş və külək enerjisi ehtiyatları Çin şirkətlərinin investisiya və texnologiya layihələrini burada da həyata keçirməsinə şərait yaradır. Beynəlxalq nəqliyyat və logistika sahəsindəki əməkdaşlıqlar ikitərəfli əlaqələrin strateji istiqamətlərindən birinə çevrilib. Xüsusilə, Orta Dəhliz Azərbaycan–Çin strateji tərəfdaşlığında vacib rol oynayır.

Şərqi Avropada yaranmış kritik geosiyasi mənzərə fonunda Çin mənşəli məhsulların Avropa bazarlarına təhlükəsiz və sürətli nəqli üçün alternativ və etibarlı tranzit kanal kimi Orta Dəhlizin əhəmiyyəti günbəgün artmaqdadır. İkitərəfli güclü diplomatik və kommersiya əlaqələrinin formalaşması bu çoxmodullu beynəlxalq qatar–bərə yolunun özünü iqtisadi və siyasi cəhətdən doğrultması baxımından önəmlidir.

Orta Dəhlizin optimallaşdırılması və ötürücülük potensialının artırılması Azərbaycan üçün yalnız tranzit gəlirlərinin artması baxımından deyil, həm də onun beynəlxalq ticarətdə strateji mövqeyinin gücləndirilməsi, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və regional inteqrasiyanın dərinləşməsi baxımından əhəmiyyət kəsb edir. Azərbaycan Orta Dəhliz vasitəsilə Çinin Avropaya çıxışını təmin edən ən vacib ölkələrdən birinə çevrilir. Bu yol həm də marşrut üzərindəki digər dövlətlər üçün də iqtisadi baxımdan əhəmiyyətlidir.

Bununla yanaşı, Azərbaycan Orta Dəhlizin tərkib hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolu, eləcə də Bakı Limanı kimi quru və dəniz əsaslı fiziki və rəqəmsal infrastruktur layihələri vasitəsilə regional logistik qovşaq kimi mövqeyini daha da möhkəmləndirir. Bütövlükdə, Azərbaycan–Çin strateji tərəfdaşlığı iki ölkənin milli maraqları ilə yanaşı, Avrasiya regionunda iqtisadi sabitliyin və inkişafın təmin edilməsinə töhfə vermə potensialına malikdir.

### “Yaşıl texnologiyada heç kim Çinlə rəqabət apara bilməz”

Prezident İlham Əliyev ADA Universitetində “Yeni dünya nizamına doğru” mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışında Azərbaycanın hazırda Çin şirkətləri ilə səmərəli əməkdaşlıq müstəvisində çoxsaylı layihələr gerçəkləşdirdiyini, müxtəlif sahələrdə, o cümlədən “yaşıl” enerji sahəsində strateji tərəfdaş olmağa dəvət edildiyini bildirib. Prezident İlham Əliyev forumdakı çıxışında bir məqama da toxunub: “Orta Dəhlizə – ÇXR Sədri Si Cinpinin “Bir kəmər, bir yol” təşəbbüsünə gəldikdə, nədənsə onu Avropada “qlobal qapı” adlandırmağa çalışırlar. “Biz “Bir kəmər, bir yol” layihəsini ilk gündən dəstəkləmişik”

Cari il fevralın 12-də İlham Əliyev Davosda Çinin CGTN telekanalının jurnalistinə müsahibəsində Çin iqtisadiyyatının indiki vəziyyəti barədə danışarkən deyib: “Sizin ölkəniz texnologiyada liderdir və Azərbaycanda bir çox Çin şirkətləri öz xidmətlərini və texnologiyasını təmin edir. Bizim müzakirə etdiyimiz kimi, yaşıl texnologiya sahəsində heç kim sizinlə rəqabət apara bilməz. Dünyanın müxtəlif yerlərindən olan, müxtəlif şirkətləri təmsil edən investorlarımız bu tutumları quraşdırmaq üçün Çin texnologiyasını seçirlər”.

Bir daha qeyd edək ki, iqtisadi və siyasi baxımdan önəm daşıyan Orta Dəhliz Çinin “Bir kəmər, bir yol” layihəsinin bir parçasıdır, eyni zamanda, tarixi İpək yolunun ən mühüm komponentlərindən biridir. Bu marşrutun sürətli inkişafı istiqamətində Azərbaycan mühüm addımlar atmaqdadır.

Sonda onu da qeyd etməyi zəruri sayırıq ki, ÇXR Sədri Si Cinpin Novruz bayramı münasibətilə martın 21-də Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda ikitərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyi vurğulanır. Məktubda deyilir: “Hazırda Çin–Azərbaycan strateji tərəfdaşlıq münasibətləri dinamik şəkildə inkişaf edir, siyasi qarşılıqlı etimad möhkəmlənir, “Bir kəmər, bir yol”un birgə tikintisi çərçivəsində əməkdaşlıq güclənir, beynəlxalq arenada məhsuldar qarşılıqlı fəaliyyət dərinləşir”. Cənab Si Cinpin məktubunu bu sözlərlə bitirir: “Sizinlə birlikdə ənənəvi dostluğumuzun möhkəmlənməsində, iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində bundan sonra da səylər göstərməyə hazıram”.

Azərbaycan Qlobal Cənubun fəal ölkəsi kimi Çinin bu coğrafiyada vacib rolunu düzgün qiymətləndirir, seçimini də buna uyğun edib. Çin həm də Azərbaycanın 4 il sədrlik etdiyi Qoşulmama Hərəkatının üzvüdür. Yəni, Azərbaycanla Çin arasında inkişaf yoluna düşmüş çoxşaxəli münasibətlər hər iki ölkəyə uğurlu gələcək vəd edir.

***XQ-nin analitik qrupu***

**Erməni hərbçilərin məhkəməsi**

# Robert Köçəryanın azərbaycanlılara qarşı milli ədavəti və düşmənçiliyi dövlət siyasətinə çevirməsi sübutlarla təsdiqlənir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 14-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.





İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmənin baxış iclası zamanı Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev Azərbaycanın suveren ərazilərinin Ermənistan tərəfindən işğalı ilə bağlı ibtidai istintaq zamanı toplanmış sənədləri, o cümlədən hadisə yerinə baxış protokolları, onlara əlavə olunan fotomaterialları, zərərçəkmiş şəxslərin və şahidlərin ifadələrini, ibtidai istintaq zamanı 1990-cı illərin əvvəllərində şübhəli və təqsirləndirilən şəxs qismində dindirilmiş erməniəsilli şəxslərlə bağlı ekspert rəylərini açıqlayıb.

Vurğulanıb ki, SSRİ Baş prokurorunun böyük köməkçisi, II dərəcəli dövlət ədliyyə müşaviri Nikolayev tərəfindən Azərbaycan əraziləri olan Xocalı, Şuşa və Xankəndidə ermənilərin müxtəlif cinayətlər törətmələri faktları ilə bağlı 1988-ci il sentyabrın 19-da Azərbaycan SSR-in Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılaraq ibtidai istintaqın aparılması SSRİ Prokurorluğunun istintaq qrupuna həvalə edilib.

SSRİ Baş Prokurorluğunda başlanmış cinayət işində vaxtilə şahid qismində dindirilmiş Artur Abramyanın elan olunmuş ifadəsinə əsasən, Qarabağdakı mitinqə Arkadi Manuçarov, Zori Balayan, Henrik Poqosyan, Maksim Babayan, tikinti idarəsinin rəisi Roles Aqacanyan, Vladik Sarkisyan və tanımadığı digər şəxslər rəhbərlik ediblər. Murad Petrosyan və Serj Sarkisyan aralarındakı razılaşmaya əsasən Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrinin silahlandırılmasını həyata keçiriblər.

Bundan başqa, Azərbaycan ərazilərində olan qanunsuz erməni silahlı birləşmələrinə maddi yardım Yerevan şəhərindən edilib, pul vəsaitlərini Ermənistan Ali Sovetinin sədri Ter-Petrosyanın müavini Vazgen Manukyan öz adamları vasitəsilə Azərbaycan ərazilərinə göndərib. Həmin pulları Azərbaycan ərazilərində Robert Köçəryan qəbul edərək qanunsuz erməni silahlı birləşmələrinə paylayıb. Eləcə də Şuşa-Xankəndi avtomobil yolunun 14-cü kilometrliyində - Xəlfəliçay çayının üzərindən keçən körpünün partladılması barədə göstərişi Murad Petrosyan verib.

Həmin cinayət işi üzrə Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində mövcud olmuş qondarma rejimin “müdafiə naziri”, “Təhlükəsizlik şurasının katibi” olmuş Samvel Babayan ibtidai istintaq zamanı şübhəli və təqsirləndirilən şəxs qismində 1990-1991-ci illərdə verdiyi ifadələrində bildirib ki, 1991-ci ilin aprelində Yevlax-Laçın avtomobil yolunda mülki sərnişin avtobusunu partladan Samvel Baqmanyan Murad Petrosyanın ümumi rəhbərlik etdiyi qanunsuz erməni silahlı birləşmələrinin üzvü olub. M.Petrosyan isə Robert Köçəryanın komandasına xidmət edib.

Şahid qismində dindirilmiş Yuriy Cahangiryan ifadəsində göstərib ki, Qarabağ İpək Kombinatında partiya təşkilat katibi vəzifəsində çalışan Robert Köçəryan “Krunk” adlı erməni millətçi təşkilatının fəal üzvü kimi çıxış edərək, azərbaycanlılara qarşı milli ədavət və düşmənçilik ideyalarının təbliğinə başlayıb.

Bundan sonra məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların təqsirləndirilən şəxslərə suallar verməsi ilə davam etdirilib.

Təqsirləndirilən Arkadi Qukasyan elan olunan ifadələr və təqdim edilən digər sübutlarla bağlı dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırmaq üçün məhkəmədən növbəti iclasadək ona vaxt verilməsini xahiş edib.

Məhkəmə iclasına sədrlik edən hakim onun xahişini nəzərə alıb və növbəti məhkəmə iclasında sualları cavablandırmasına şərait yaradılacağını bildirib.

Daha sonra təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin, dövlət ittihamçıları Fuad Musayevin və Vüsal Abdullayevin suallarını cavablandıraraq deyib: “1990-cı illərdə Robert Köçəryan, Murad Petrosyan, Manuçuryan və digərləri Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində mitinqləri təşkil edənlər və “hərəkat”ın önündə gedənlər olublar”. O, 1988-1990-cı illərdə Xankəndidə yaşayan azərbaycanlıların evlərini necə qoyub getmələrini də xatırladığını bildirib və əlavə edib: “Körpünün (Xəlfəliçay üzərindəki körpü – red.) partladılmasını da xatırlayıram”.

O, hansısa küçədə azərbaycanlıların evlərinin yandırılması, qətllər, qarətlər barədə eşitdiyini bildirib. Buna baxmayaraq, təqsirləndirilən şəxs hadisələrin məhkəmədə açıqlanan miqyasda olması barədə məlumatsız olduğunu iddia edib və qeyd edib: “Bilmirdim ki, bu qədər qətl, zorakılıq olub. Cinayət işlərinin açılmasından da məlumatsız idim. Eşidirdim, görürdüm ki, Xankəndidə azərbaycanlıların hərəkət etmələrində, məsələn, dükandan nəsə almalarında problem var idi. Oradakı azərbaycanlıların evlərindən getmələrinə gəlincə, dəqiq budur ki, onlar bunu könüllü etməyiblər”.

Təqsirləndirilən şəxs qətllərin olmasını da təsdiqləyərək deyib: “Bəli, çoxlu qətllər, hətta ermənilərin erməniləri öldürdükləri faktlar da olub. Yəni, ermənilər təkcə azərbaycanlılara qarşı olmayıblar, orada məişət, siyasi zəmində ermənilərin erməniləri öldürmələri halları olub. Xankəndidə, Qarabağda yüksəkvəzifəli şəxsi öldürüblər”.

A.Harutyunyan Xankəndidə öldürülən vəzifəli şəxsin adını da açıqlayıb və əlavə edib: “Adı Valeri Qriqoryandır. Onun qətli ilə bağlı müxtəlif versiyalar var. Biri o idi ki, o, Bakıya gedərək azərbaycanlılarla görüşüb. İkinci versiya o idi ki, vəzifə üçün öldürülüb. Fakt bu idi ki, Bakıdan qayıdandan sonra öldürülüb, deməli, birinci variant daha uyğundur”.

O, dindirilmə zamanı Samvel Babayanın 2000-ci ildə Arkadi Qukasyana qarşı sui-qəsd törətməsindən də danışıb, onu məcburiyyətdən “Təhlükəsizlik şurasının katibi” təyin etdiyini bildirib.

A.Harutyunyan Murad Petrosyanı isə 2010-2012-ci ildən sonra tanıdığını bildirib: “Ondan əvvəl isə onun barəsində eşitmişdim. Bir neçə il əvvəl öldü. Petrosyanla bir komandada olmamışıq. O, mənə qarşı olub. Biz əks qütblərdə olmuşuq”.

Bu zaman məhkəmədə sənəd tədqiq olunub. Sənədə əsasən məlum olub ki, A.Harutyunyan M.Petrosyan vəfat edərkən başsağlığı verib, onun barəsində xoş sözlər yazıb, fəaliyyətini yüksək qiymətləndirib.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan isə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında Xəlfəliçay üzərindəki körpünün partladılması barədə eşitdiyini deyib. O, məhkəmədə əməlləri sadalanan Murad Petrosyanla ünsiyyətinin olmadığını da vurğulayıb və bildirib: “O, 2020-ci ildə Xankəndidə yolu bağlayan etirazçıları müdafiə edirdi”.

Ardınca dövlət ittihamçısı Təranə Məmmədova tərəfindən Bako Sahakyan və David İşxanyana suallar verilib.

Təqsirləndirilən şəxs Bako Sahakyan körpünün partladılmasını pislədiyini qeyd edərək deyib: “Bu kimi halları tənqid edir və pisləyirəm”.

Təqsirləndirilən şəxs David İşxanyan suallara cavab verərkən Xəlfəliçay çayı üzərindəki körpünün partladılması hadisəsi barədə məlumatsız olduğunu, bu barədə ilk dəfə məhkəmədə eşitdiyini bildirib.

Daha sonra məhkəmədə Bağanıs-Ayrım epizodu üzrə hadisə yerinə baxış protokolları, zərərçəkmiş şəxslərin və onların hüquqi varislərinin ifadələri, habelə ekspertiza rəyləri açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 17-nə təyin olunub.

# Azərbaycanın iqtisadi uğurları beynəlxalq hesabatlarda yüksək qiymətləndirilir

(əvvəli 1-ci səhifədə)

Bu gün iqtisadi diversifikasiyada qeyri-neft sənayesinin innovativ üsullarla inkişafı və şaxələndirilməsi önəmli rol oynayır. İdxalı əvəz edən, yeni ixrac imkanları yaradan, eləcə də müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması isə mövcud sahənin yeni mərhələyə daxil olmasını şərtləndirir.

Bu mərhələdə qeyri-neft sənayesinin inkişafı ölkəni karbohidrogen daşıyıcılarının hasilatı və ixracından əldə olunan gəlirlərdən, həmçinin daxili istehsalın və istehlak bazarının idxaldan asılılığını azaldır, ixracın şaxələnməsinə xidmət edir. Son illərdə respublikada yüzlərlə müasir qeyri-neft sənaye müəssisəsi, yeni istehsal sahələri və bölgələrdə sənaye parklarının yaradılması, daxili tələbatın ödənilməsində yerli məhsulların payının əhəmiyyətli dərəcədə artması da bu məsələnin reallaşmasında həlledici rola malikdir.

Azərbaycanda qeyri-neft sənaye sahələrinin yaradılmasına investisiya cəlbi üçün əlverişli biznes mühiti, coğrafi yerləşmə, müasir infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var. Müasir sənaye zonaları və aqroparkların təşəkkülü də belə demək mümkünsə, bu cür əlverişli mühitin məhsuludur. Bu istehsal sahələrində iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur, sahibkarlara təşkilati köməklə yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastrukturla təminat təklif edilir.

Moody's Beynəlxalq Reytinq Agentliyinin yaydığı hesabatda isə bildirilir ki, Ermənistanla sülh sazişinin tamamlanması Azərbaycanın regionun sabitliyi ilə bağlı narahatlıqlarını aradan qaldıra və inkişafyönümlü impulsları, eləcə də xarici sərmayə marağını daha yüksək səviyyədə stimullaşdıra, eyni zamanda, müxtəlif sahələrdə iqtisadi inkişafı dəstəkləyə bilər. Bütün bunlarla bərabər, hökumətin regionun rəqəmsallaşmasını, "yaşıl" zonaya çevrilməsini və qeyri-neft sektorlarından – turizm, kənd təsərrüfatı, qida və digər sənaye hədəflərinin həyata keçirməsi iqtisadi diversifikasiyanı daha da sürətləndirər. Bütün bu və digər istiqamətlərdə həyata keçirilən layihələr isə regional sabitliyi daha da möhkəmləndirər, son 3 ildə tranzit həcmlərində əhəmiyyətli artım müşahidə olunan Orta Dəhlizin cəlbediciliyini və davamlılığını gücləndirər.




Moody's Agentliyinin Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanacağı təqdirdə bölgədə iqtisadi şəraitin daha da yaxşılaşacağını xarakterizə edən hesabatı ilə bağlı yuxarıdakı fikirlər respublikamız haqqında ilk belə uğurlu qiymətləndirmə deyil. Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi ötən illər ərzində bu cür dəyərləndirmə beynəlxalq reytinq təşkilatları tərəfindən dəfələrlə səsləndirilib. Məsələn, ötən ilin, təxminən, elə bu günlərində Beynəlxalq Valyuta Fondu (BVF) yaydığı hesabatda Azərbaycanı ən böyük və qabaqcıl potensiala malik olan 7 dövlətin siyahısına daxil etmişdi. Ekspertlər isə Azərbaycanın dünyanın cəlbedici investisiya ölkəsi kimi önə çəkilməsini olduqca təqdirəlayiq hal kimi qiymətləndirmişdi.

Əslində mötəbər beynəlxalq maliyyə qurumunun ölkəmizi "Top-7"-yə daxil etməsi gözlənilən idi. Çünki ötən 20 ildən artıq bir müddətdə əsrə bərabər inkişaf yolu keçən Azərbaycan dünyada öncül islahatçı ölkələrdən birinə çevrilib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan yeni neft strategiyasının reallaşdırılması ilə Azərbaycanın qapıları xarici sərmayədarların üzünə açıldıqdan sonra respublikamız dünyada əlverişli biznes məkanı kimi tanınıb.

Azərbaycanda həyata keçirilən iri neft-qaz layihələrinin uğurlu nəticələri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı üçün əlverişli imkanlar yaradıb. Bütün bunlar isə ölkə iqtisadiyyatının cəlbediciliyinin bir qədər də artmasına səbəb olub. Elə cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycanda hakimiyyətə gələndən ötən müddətdə respublika iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə yatırılması da məhz bunun bariz nümunəsi olaraq yüksək qiymətləndirilib.

Mərkəzi Bankın məlumatına əsasən, ötən il isə Azərbaycana birbaşa xarici investisiya qoyuluşu 7 milyard dollara (illik ifadədə 5,83 faiz çox) yüksəlib. İl ərzində xarici investisiyaların ölkədən repatriasiyası isə 7,3 milyard dollara bərabər olub. Ölkəyə yatırılan xarici investisiyalarda top 5-də Birləşmiş Krallıq (1,8 milyard dollar), Türkiyə (1,2 milyard dollar), Macarıstan (1 milyard dollar), Cənubi Kipr (746 milyon dollar) və Birləşmiş Ərəb Əmirlikləri (490 milyon dollar) qərarlaşıb.

Hesabat dövründə Azərbaycan xaricə 1,8 milyard dollar birbaşa investisiya yönəldib. Bu baxımdan top 5-də Birləşmiş Ərəb Əmirlikləri (458 milyon dollar), Türkiyə (249 milyon dollar), Gürcüstan (165 milyon dollar), Birləşmiş Krallıq (111 milyon dollar) və Özbəkistan (93 milyon dollar) yer alıb.

Yeri gəlmişkən, 2025-ci ilin yanvar-fevral aylarında isə neft-qaz sektoruna 619 milyon manatlıq investisiya yönəldilib. Qeyri-neft-qaz sektorunun inkişafına sərf edilən 1 milyard 390 milyon manatlıq investisiyanın 281 milyon manatı (ümumi sərmayənin 14 faizi) isə qeyri-neft-qaz sənayesi sektorunda istifadə olunub.

Belə ki, investisiya qoyuluşu ilə bağlı bir məqama da diqqət yetirmək istərdik. Belə ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda adıçəkilən sənəddə nəzərdə tutulan müddətdə qeyri-neft-qaz sektoru üzrə birbaşa xarici investisiyaların həcminin hər il 10-15 faiz artımı planlaşdırılıb. Eyni zamanda, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması, iqtisadiyyatın şəffaflaşması kimi bir sıra məsələlər qarşıya məqsəd kimi qoyulub.

Ölkəmizin iqtisadi sistemində beynəlxalq ekspertlərin yüksək qiymətləndirdikləri diqqətçəkən məqamlardan biri də xarici dövlət borcunun uğurla azaldılmasıdır. Maliyyə Nazirliyinin operativ məlumatına görə, Azərbaycan hazırda xarici dövlət borcunun səviyyəsi 5 milyard 160 milyon dollar və ya 2024-cü il üzrə ÜDM-in 6,9 faizini təşkil edir.

## 7 KOB subyekti də "Startap"çı oldu



**"Startap" şəhadətnaməsi almaq üçün KOB subyektlərindən İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) daha 9 müraciət daxil olub. Bu barədə KOBİA-dan məlumat verilib.**

Bildirilib ki, həmin müraciətlərə Ekspertlər Şurasının növbəti iclasında baxılıb və onlardan 7-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 206-ya çatıb.

"Startap" şəhadətnamələri "Aprimus" MMC-nin tibbi xidmətlərin qeydiyyatı, nəzarət və analiz platforması, "Nomadman Studio" MMC-nin kompüter oyunlarının istehsalı, "Poolin İnsurtech" MMC-nin "insurtech" sığorta həlləri üçün onlayn platforması, "Remart Digital Solutions" MMC-nin yaşayış kompleksləri üçün onlayn satış və biznes proseslərinin idarəetmə platforması, "Novalingua" MMC-nin xarici dillərin öyrədilməsi və qiymətləndirilməsi üçün süni intellekt əsaslı onlayn platforması, "Tokaz" MMC-nin elektrik avtomobilləri üçün şarj stansiyalarının idarə edilməsi üçün mobil tətbiqi və fiziki şəxs Bəhruz Qədirovun müəllif ideyalarını və layihələri investorlara təqdim etmək üçün onlayn platforma layihələrinə görə təqdim edilib.

Xatırladaq ki, "Startap" şəhadətnaməsi kiçik və orta biznes subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət edə bilərlər.

## Orta əməkhaqqı 10 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 10,2 faiz artaraq 1043,6 manat təşkil edib.**



İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Martın 1-i vəziyyətinə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1758,8 min nəfər olub, onlardan 878,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 880,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 18,7 faizi təhsil, 18,6 faizi ticarət, 13,7 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi, sosial təminat, 4,2 faizi nəqliyyat, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,3 faizi kənd təsərrüfatı, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

## TDT-nin ÜDM-i 2,1 trilyon dolları ötüb

**Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev Antalya Diplomatik Forumunda bildirib ki, təmsil etdiyi qurumun 2024-cü ildə ticarət gəliri 1,1 trilyon ABŞ dollarına çatıb. TDT üzv ölkələri arasındakı qarşılıqlı ticarət həcmi bu məbləğin cəmi 7 faizini, yəni, təxminən, 57 milyard dollarını təşkil edib. TDT kimi böyüməkdə olan bir qurum üçün üzv ölkələr arasındakı ticarət dövriyyəsinin, ən azı, 10 faizə çatdırılması strateji hədəf kimi qarşıya qoyulub. Kubanıçbek Ömüralıyev bu məqsədə çatmaq üçün əsas təşəbbüsün bu il fəaliyyətə başlayan Türk İnvestisiya Fondu olduğunu bildirib.**



Onun sözlərinə görə, müştərək maliyyə qurumu regionda strateji infrastruktur, kiçik və orta sahibkarlıq (KOB) və innovasiya layihələrini dəstəkləmək məqsədi daşıyır. Bununla yanaşı, biznes əlaqələrini dərinləşdirmək üçün Türk Ticarət və Sənaye Palatası yaradılıb və ticarət maneələrini aradan qaldırmaq üçün Ticarət Mexanizmi Komitəsi təkmilləşdirilib.

## Astara dəmiryol terminalı – Şimaldan Cənuba geniş qapı

**"Azərbaycan Dəmir Yolları" (ADY) Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı əsas elementlərindən olan Astara Terminalında (İran İslam Respublikasının ərazisində) tikinti işlərini sürətləndirib.**




ADY-dən verilən məlumata görə, terminalın layihələndirmə işlərinin 85 faizi, tikinti-quraşdırma işlərinin isə 72,4 faizi artıq başa çatdırılıb. Astara stansiyasından İran İslam Respublikası ilə sərhədə qədər 8,3 kilometr dəmiryol xətti çəkilib və Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub. Layihə çərçivəsində 7 körpünün tikintisi nəzərdə tutulub. Körpülərdən birinin inşası tam yekunlaşıb, digərlərinin tikintisi üzrə işlərin isə 90 faizi başa çatdırılıb.

Astara Terminalında 2023-cü ildə 692 min, 2024-cü ildə isə 777 min tondan çox yük aşırılıb. Terminalın tikintisi tam yekunlaşdıqdan sonra yükaşırma gücünün illik 3,5 milyon tona çatdırılması nəzərdə tutulub.

İranın Astara şəhərində sərhədin 1,4 kilometrliyində yerləşən terminalın tikintisi aparılan sahə qonşu ölkə tərəfindən 25 il müddətinə Azərbaycana icarəyə verilib və əldə olunan razılaşmaya əsasən, infrastrukturun 2017-ci ildə inşasına start verilib.

Astara Terminalı Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların həcminin artırılmasını və əməliyyatların operativ şəkildə həyata keçirilməsini təmin edəcək.

## Qeyri-neft-qaz sektoru böyüyür

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin ilk rübündə ölkədə 29 milyard 893 milyon manatlıq (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz çox) ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,8 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 2,5 faiz çoxalıb.**

ÜDM istehsalının 37 faizi sənaye, 10,3 faizi ticarət, 6,8 faizi nəqliyyat, 5,8 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, 2,9 faizi turizm və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,6 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,7 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 2922 manat olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Mətbuat Şurasında təqdimat

# Jurnalistikadan elmə, sonra da ali təhsilə...



**Dünən Azərbaycan Mətbuat Şurasında Əməkdar mədəniyyət işçisi, şair, yazıçı və publisist Vaqif Bəhmənlinin Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmlinin 70 illik yubileyi ilə bağlı qələmə aldığı "İri planda Qulu Məhərrəmli" kitabının təqdimatı keçirilib.**




Toplantını giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirib ki, təqdimatı keçirilən nəşr bir neçə cəhətdən diqqət çəkməkdədir. Birincisi, kitab tarixi ekskurs əhəmiyyəti daşıyır. Orada göstərilən faktlar, bölüşülən xatirələr bütöv bir mərhələnin yaşantısıdır. İkincisi, nəşrdə Qulu Məhərrəmlinin yaradıcılığının ən müxtəlif tərəfləri əksini tapıb ki, bu da ölkəmizin media, konkret olaraq, telejurnalistika sənətinin xüsusiyyətlərinin özünəməxsus təsviridir. Üçüncüsü, kitab Qulu Məhərrəmlinin fəaliyyətinin çoxşaxəli diapazonuna, jurnalistin istedadına dövrümüzün görkəmli simalarının verdikləri qiymətin mükəmməl təsvirini özündə birləşdirir.

Vaqif Bəhmənli çıxışında müəllifi olduğu kitabı 52 illik xatirənin məhsulu adlandırıb. O bildirib ki, nəşrdə tələbəlik dostu barəsindəki fikirlər, əslində, onu tanıyan hər kəsin gəldiyi qənaətin ümumiləşdirilmiş formasıdır.

Toplantıda çıxış edənlərdən veteran jurnalist Ülkər Hüseynova, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və baş redaktor müavini Qüdrət Piriyev, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, yazıçı-publisist Seyran Səxavət, Əməkdar jurnalistlər Əlövsət Ağalarov və Eyruz Məmmədov, "Bizimyol.info" saytının baş redaktoru Bahəddin Həzi, şair-publisistlər Adil Cəmil və Zülfüqar Şahsevənli, Ağacəfər Həsənli, MŞ-nin Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu, Əməkdar jurnalistlər Namiq Qədimoğlu, Faiq Sadıqov, Zemfira Məhərrəmli, Əminə Yusifqızı, jurnalist-publisist Rəhilə Gülgün və başqaları "İri planda Qulu Məhərrəmli" kitabının Q.Məhərrəmlinin 70 illik yubileyinə, jurnalist əməyinə, publisistikasına və pedaqoji fəaliyyətinə yüksək dəyərin nümunəsi olduğunu əsaslandırıblar.

Çıxış edənlər yubilyarı nəinki Azərbaycan jurnalistikasında, eyni zamanda, ictimai fikrində özünəməxsus yerə və rola malik zəka sahibi, daim mütərəqqi düşüncələri ilə seçilən ziyalı kimi xarakterizə ediblər.

Sonda çıxış edən Qulu Məhərrəmli təqdimatı keçirilən kitabın müəllifi Vaqif Bəhmənliyə və mərasim iştirakçılarına təşəkkürünü bildirib, əməyinə verilən yüksək dəyərin onu yeni uğurlara təşviq etdiyini söyləyib.

*T.RÜSTƏMLİ*
*XQ*

---

Hər kitab bir dünyadır




## Türkçülüyün geniş üfüqləri

**Ədəbiyyatşünas alim, esseist Azər Turanın "Ulusu sevmək fənni (türk düşüncəsi)" kitabı çap olunub. "Elm və təhsil" nəşriyyatında çap olunan, 936 səhifəlik kitabın elmi redaktoru və ön sözünün müəllifi Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova, rəyçisi və son sözün müəllifi AMEA-nın müxbir üzvü Tehran Əlişanoğludur.**

Kitabda, əsasən, türkçülüyün və türk tarixinin aparıcı hadisələri, türk düşüncəsinin müxtəlif mərhələləri araşdırılır, türkoloji problemlərə toxunulur. Türkçülük, turançılıq məfkurəsinin abidə şəxsiyyətləri barədə portret yazılar təqdim edilir. Kitabda eləcə də modernizmin türk ədəbiyyatında qoyuluşu və təzahür şəkilləri çağdaş dünya humanitar fikri kontekstində təhlil olunur.

"Ulusu sevmək fənni"ndə eyni zamanda, müəllifin İkinci Qarabağ savaşı günlərində qələmə aldığı yazılar, çağdaş Azərbaycan ədəbiyyatının və elmi fikrinin, incəsənətinin görkəmli nümayəndələri barədə son illərdə yazdığı esselərin bir qismi yer alıb.

## "Azərbaycanın mühacir ədəbiyyatı"

**Moskvada Baninin "Qafqaz günləri" avtobioqrafik romanı və Qurban Səidin "Əli və Nino" romanını özündə əks etdirən "Azərbaycanın mühacir ədəbiyyatı" kitabı işıq üzü görüb.**

Banin (Um-el Banu) 1905-ci ildə Bakıda zadəgan ailəsində anadan olmuşdur.




Onun ata tərəfdən (Şəmsi Əsədullayev) və ana tərəfdən (Musa Nağıyev) babaları məşhur neft sənayeçiləri olublar. Erkən yaşda anasını itirən Banin Avropa dayələrının himayəsində böyüyüb. 19 yaşında ailəsi ilə birlikdə Türkiyəyə, oradan da Fransaya mühacirət edib. Banin erkən yaşlarında ədəbiyyata maraq göstərib və bu, Fransaya mühacirət etdikdən sonra onun əsas fəaliyyətinə çevrilib. "Qafqaz günləri" avtobioqrafik romanı 1945-ci ildə nəşr olunub

Yazıçı "Qafqaz günləri" kitabında 1920-ci illərdə Bakı cəmiyyətinin müxtəlif təbəqələrinin həyatından, varlıların və kasıbların zövq və vərdişlərindən, sadə insanların durumundan bəhs edir. Romanda yazıçının ailəsinin şəxsi dramı və ötən əsrin əvvəllərində böyük sarsıntılar dövründə Azərbaycan xalqının həyatında baş verən faciəvi hadisələr öz əksini tapıb.

*

**"Əli və Nino" bestselleri isə ilk dəfə 1937-ci ildə Vyanada alman dilində, sonra dünyanın 33 dilində 100 dəfədən çox nəşr edilmişdir. Qurban Səidin romanı azərbaycanlı müsəlman Əli Xan Şirvanşir ilə gürcü xristian Nino Kipiani arasındakı məhəbbətdən bəhs edir. Kitabı İslam və Xristianlığı, Şərqlə Qərbi anlamaq yollarının axtarışı kimi təqdim etmək olar.**

Romanda Birinci Dünya müharibəsi, inqilablar, vətəndaş müharibəsi və 1918-ci ilin mart hadisələri, ingilislərin Bakıya gəlişi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, Sovet qoşunlarının Bakını zəbt etməsi, XX əsrin əvvəllərində Bakı və bakılıların həyatından ətraflı bəhs edilir.

"Azərbaycanın mühacirət ədəbiyyatı" kitabının təşəbbüskarı, tərtibçisi və müqəddiməsinin müəllifi tibb elmləri doktoru, professor, Tacikistan Tibb Elmləri Akademiyasının xarici üzvü Mehman Məmmədovdur. Son illərdə alim Moskvada Azərbaycanın mədəniyyətinə və tarixinə dair silsilə kitablar çap etdirib.

*Ə.ƏLİYEV*
*XQ*

---

Beynəlxalq Mədəniyyət Günü

**Bu tarix 1935-ci il aprelin 15-də Vaşinqtonda 21 ölkə başçısının imzaladığı "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" müqavilə ilə əlaqədardır. Beynəlxalq hüquq təcrübəsində "Rerix paktı" kimi də tanınır. Çox geniş olan mədəniyyət anlayışı, ilk növbədə, cəmiyyətin inkişafının səviyyəsi, insan övladının yaratdığı, nəsildən-nəslə ötürdüyü maddi və mənəvi dəyərləri ehtiva edir. Böyük şair və dramaturq Hüseyn Cavid deyib:**



# Milli dəyərlər, bəşəri amallar

*Turana qılıncdan daha kəskin,*
*ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət,*
*mədəniyyət!*

Çoxəsrlik zəngin mədəni irsə sahib olan Azərbaycanda mədəniyyətin inkişafını hər zaman dövlət diqqət mərkəzində saxlayıb. Ümummilli liderin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə mədəniyyət və incəsənət sahəsində daimi olaraq əsaslı islahatlar aparılır, milli-mənəvi dəyərlərimiz daha da zənginləşir. Memarlıq abidələrinin sayı artır, teatr binaları, konsert salonları yüksək səviyyədə təmir-bərpa edilir, əsl zövq və istirahət məkanlarına çevrilir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mədəniyyətə aid proqram və layihələr hazırlayıb həyata keçirməyi, bu sahədəki uğurları təbliğ etməyi, insanların yaradıcı potensialını aşkara çıxarmağı fəaliyyətinin prioritet istiqamətlərindən sayır. Bir çox mədəni irs nümunələrimizin UNESCO-nun mədəni irs siyahısına salınması bu fəaliyyətin aşkar uğurlarıdır. Beynəlxalq festival və sərgilər vasitəsilə dünya mədəniyyətinə inteqrasiyamız da yüksək səviyyədədir. Bu gün Azərbaycanın dünyada inkişaf etmiş mədəniyyət ölkəsi kimi tanınması ilə fəxr edirik.

Prezident İlham Əliyev milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə bağlılığını, ehtiramını, qayğısını ifadə edərək deyib: "Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır – alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır". Mədəniyyət və incəsənət xadimlərinə Azərbaycan Prezidentinin fərdi təqaüdünün və mükafatlarının verilməsi haqqında çoxsaylı sərəncamları mədəniyyətimizə olan diqqətdir.

Ötən il ölkəmizdə elm, mədəniyyət və incəsənət xadimlərinin şanlı yubileyləri keçirilib. Dövlət başçısı dahi şair Məhəmməd Füzulinin 530, görkəmli bəstəkar Süleyman Ələsgərovun və Xalq şairi Nəbi Xəzrinin 100 illiyinin keçirilməsi haqqında sərəncamlar imzalayıb, il ərzində bu və digər yubileylər silsilə tədbirlərlə əlamətdar olub.

Eyni zamanda, mədəniyyətin inkişafında xidmətlərinə görə tanınmış ziyalılar orden və medallara layiq görülüblər. Tanınmış memar Elbay Qasımzadə "Əmək", akademik Rafael Hüseynov, şair Baba Vəziroğlu və Əməkdar mədəniyyət işçisi Röya Tağıyeva "Şərəf", ədəbiyyatşünas, filologiya elmləri doktoru Ramiz Əskərov (bir qədər sonra dünyasını dəyişib) 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif ediliblər. Milli Arxiv İdarəsinin rəisi, filologiya elmləri doktoru, professor Əsgər Rəsulov və telejurnalist Telli Pənahqızı 2-ci, digər telejurnalist Azər Xəlilov isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri alıblar. 150 nəfər incəsənət xadimi Prezident mükafatına, 7 nəfər isə Prezidentin fərdi təqaüdünə layiq görülüb. Onlar Ömər Eldarov, Böyükxanım Əliyeva, Xanlar Həşimzadə, Fərhad İsrafilov, Aqil Məlikov, Sevda Məmmədəliyeva və Laləzar Mustafayevadır. Tanınmış jurnalist, BDU-nun professoru Qulu Məhərrəmli də ötən il fərdi təqaüdçülər sırasına daxil edilib.

Azərbaycan mədəniyyətinə danılmaz xidmətlər göstərən Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə bu beynəlxalq təşkilatın bir qrup əməkdaşı da orden və medallarla şərəfləndirilib. Prezidentin sərəncamı ilə elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatlarının laureatlarının adları açıqlanıb. Texnika sahəsi üzrə Vaqif Fərzəliyev, Həqiqət Cavadova və Əfsun Sucayev, mədəniyyət sahəsi üzrə isə teatr rejissoru Mehriban Ələkbərzadənin fəaliyyətləri dəyərləndirilib.

Mədəni irsin layiqincə dəyərləndirilməsi bu ilin əvvəlindən də davam edir. Dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim Üzeyir Hacıbəylinin 140, milli dəzgah boyakarlığının banisi Mirzə Qədim Məhəmmədhüseyn oğlu İrəvaninin 200, klassik şair Seyid Əzim Şirvaninin 190, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyləri haqqında sərəncamlar imzalanıb. Yeri gəlmişkən, çağdaş klassikin yubileyi həm də bütün Türk dünyasında qeyd olunur – TÜRKSOY 2025-ci ili "Bəxtiyar Vahabzadəni Anma İli" elan edib.

Polad Bülbüloğlu 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, Afaq Məsud Prezidentin fərdi təqaüdü, Xalq artisti Şəfiqə Məmmədova "İstiqlal" ordeni ilə təltif edilib. Adları "Qızıl kitab"a yazılmış gənc istedadlara xüsusi təqaüdlərin verilməsi üçün, ümumilikdə, 100 min manat məbləğində vəsait ayrılıb.

Təəssüf ki, Beynəlxalq Mədəniyyət Gündə soydaşlarımızı Qərbi Azərbaycandan qovub çıxarmış, Qarabağ torpaqlarını işğal etmiş Ermənistanın dövlət səviyyəsində xalqımıza məxsus tarixi abidələrə qarşı faktiki olaraq soyqırımı siyasəti həyata keçirdiyini də yada salmalı oluruq. İrəvanda, Zəngəzurda, Göyçədə, Şuşada və digər əzəli yurd yerlərimizdə erməni vandalları tarixi binaları, abidələri dağıdıb,



Yer üzündən silməyə çalışıb, nadir muzey sərvətlərimizi ələ keçirərək öz adlarından dünyaya çıxarıblar. Tarixi saxtalaşdırmağın ustası olan haylar qala, məscid, hamam, karvansaraylarımıza özlərinə aid "mənsubiyyət yamağı" vurmaqdan da çəkinməyiblər. Bu, həm onların oğurluq xislətindən, həm də Ermənistan adlı uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına bəraət qazandırmaq niyyətindən irəli gəlib. Nə yaxşı ki, 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəmizin sayəsində Qarabağ və Şərqi Zəngəzuru alaraq, olub-qalan tarixi kodlarımızı tamamilə itib-batmaqdan xilas elədik. İndi o yerlərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bu tədbirlər tarixi-mədəni abidələrimizə də aiddir. Elə bu ilin fevralında Prezidentin Ağdamda "İmarət" Tarix-Memarlıq Muzey Kompleksi və Xocalı şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması ilə bağlı sərəncamlar imzalaması son dərəcə təqdirəlayiqdir.

Dövlətimizin başçısının ötən il sentyabrın 30-da Bakıda böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılış mərasimindəki çıxışında bildirib: "Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik"...

Şərq mədəniyyəti ilə sıx bağlı olan, eyni zamanda, Qərb mədəniyyətinə biganə qalmayan Azərbaycanda bu sahəyə dair qanunlar daimi işləkliyi ilə xarakterizə edilir. Biz daxil olduğumuz beynəlxalq mədəniyyət qurumlarında təkcə öz mədəniyyətimizi təbliğ etməklə, yaxud dünya mədəniyyətinin Azərbaycanda təşviqi ilə məşğul olmuruq. Bu yolla dünya mədəniyyətinin yaranmasında və inkişafında da yaxından iştirak edirik.

*Ə.DOSTƏLİ*
*XQ*

# Paytaxtın "yaşıl" şəhadətnaməsi

*Leyla Əliyevanın təşəbbüsü ilə şəhər yaşıllıqları inventarlaşdırılır*



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2022-ci ildən həyata keçirilən "Bakı şəhərində ağacların qeydiyyatı və nömrələnməsi" layihəsinin növbəti mərhələsinə başlanılır. Leyla Əliyevanın iştirakı ilə aprelin 13-də Bakı şəhərinin Nərimanov rayonunda yerləşən yeni açılan parkda layihə üzrə ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub. Eyni zamanda, parkın ərazisində 50 ədəd zeytun ağacı əkilib.**

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin birgə əməkdaşlığı ilə həyata keçirilən layihənin əsas məqsədi yaşıllıqların mühafizəsinin dayanıqlılığını təmin etmək, müdaxilə hallarının aradan qaldırılmasına, dəqiqləşdirilmiş inventarizasiya və reyestr platformasının formalaşdırılmasına, ictimai nəzarətin gücləndirilməsinə nail olmaqdır.

Qeyd edək ki, layihə çərçivəsində artıq "Şəhər yaşıllıqlarının reyestri" informasiya sistemi yaradılıb və Bakı şəhərinin Səbail rayonu ərazisində 25 minə yaxın ağac uçota alınıb, yaxın aylarda üzərlərinə nömrə lövhələri vurulmaqla inventarlaşma prosesinin tamamlanması nəzərdə tutulub. Eyni zamanda, layihənin pilot mərhələdə icrası zamanı Nərimanov rayonu ərazisində yerləşən Atatürk parkı və abad həyət komplekslərində 2 min 352 ağac uçota alınaraq inventarlaşdırılıb.

Ağaclar barədə məlumatların ictimaiyyətə açıq formada təqdim edilməsi məqsədilə www.agac.az portalı sınaq rejimində istifadəyə verilib. Təqdim olunan portal Azərbaycan Prezidentinin 10 yanvar 2025-ci il tarixli, 282 nömrəli Fərmanı ilə Əsasnaməsi təsdiq edilmiş "Rəqəmsal ekologiya" informasiya sisteminin tərkib hissəsi olaraq yaradılmışdır.

Qeydiyyat işləri şəhərin inzibati ərazisində, o cümlədən park, yol kənarı və həyətyanı məhəllələrdə yerləşən bütün yaşıllıqlara şamil edilir. Proses əvvəlcədən təşkil edilmiş qruplar tərəfindən, hər bir ağacın üzərində xüsusi hazırlanmış nömrə etiketləri vurmaqla və həmin ağac barədə dürüst məlumatların elektron bazada yığılması ilə həyata keçirilir. Nömrələnmə ağaclara tam zərərsiz olan üsul ilə aparılır. Ağacın gövdəsinə vurulan etiketlər davamlı materialdan hazırlanır və üzərində ağacın nömrəsi və ağacın fərdi profilinə keçid üçün QR-kod əks olunur.

Bakıda ağacların qeydiyyatı və nömrələnməsi üzrə layihənin tərəfdaşları hər kəsi yaşıllıqların mühafizəsi və artırılmasına dəstək olmağa, təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

# "Bizim həyət" layihəsinin Yeni Yasamal sakinlərinə töhfəsi

**Aprelin 13-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 1400-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**



Tədbir çərçivəsində Leyla Əliyeva IDEA könüllüləri ilə birlikdə keçirilən ağacəkmə aksiyasında iştirak ediblər. Həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim olunub.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş növbəti həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb. Eyni zamanda, həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.



Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 170 ədəd müxtəlif növ ağac və 3100-dən çox mövsümi gül, eləcə də kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyət" layihəsi 2017-ci ildən etibarən icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Layihə çərçivəsində bu günədək 157 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin "qaynar xətt"i "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

***XQ***

Beynəlxalq həyat

# Rusiya–Ukrayna savaşının yeni qurbanları

**(əvvəli 1-ci səhifədə)**

Bu il aprelin 13-dən 14-nə keçən gecə Ukraynanın bir çox şəhərləri aviazərbələrə məruz qalıb. Rusiya ballistik raket və dronlarla Sumı şəhərinə havadan hücum edib. 2-si uşaq olmaqla 34 nəfər həlak olub, 119 nəfər yaralanıb. Şəhər sakinləri kədər və məyusluq içindədir. Qlobal media bu hücumu "Sumı faciəsi" adlandırıb.

Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kirilo Budanov mətbuata bildirib ki, Sumıya "İskander-MKN-23" tipli iki ballistik raketlə zərbəni Rusiya ordusunun 112-ci və 448-ci briqadalarının heyətləri endiriblər.

Bu arada Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ-ın "CBS News" telekanalına müsahibəsində bildirib ki, hazırda onun ölkəsinə bəzi şəhərləri müdafiə etmək üçün, ən azı, 10 "Patriot" sistemi lazımdır. Onların birgə qiyməti 15 milyard dollardır. Kiyev həmin vəsaiti ödəməyə hazırdır.

Ukrayna dövlət başçısının sözlərinə görə, hələlik Pentaqon həmin qurğuları Kiyevə satmaqdan imtina edir. Ümid digər Qərb dövlətlərinə qalır. V.Zelenski vurğulayıb ki, avropalı tərəfdaşları Ukraynaya müasir silahlar almaqda hər cür dəstək verməyə hazırdırlar.

Ukraynaya hərtərəfli yardım göstərmək fikrində olan dövlətlərdən biri də Almaniyadır. Bu ölkənin gələn aydan kansler kimi ali vəzifəsinin icrasına başlayacaq Fridrix Merts dünən mediaya açıqlamasında Rusiyanın Sumiyə ağır zərbə endirməsini pisləyib. Siyasətçi bunu ciddi müharibə cinayəti adlandırıb. O, rəsmi Kiyevin döyüş meydanında irəliləmək üçün köməyə ehtiyacı olduğunu bildirib.



Sumıda baş verənlər dünya ictimaiyyətini şok salıb. Prezident Donald Tramp Sumıdakı fəlakətlə bağlı jurnalistlərə deyibdir: "Mən düşünürəm ki, bu, dəhşətdir. Mənə dedilər ki, onlar (Rusiya nəzərdə tutulur-müəllif) səhvə yol veriblər".

Ukraynanın dövlət başçısı Volodimir Zelenski isə amerikalı həmkarını hər hansı bir qərar qəbul etməzdən və Rusiya ilə danışıqlar aparmazdan əvvəl Ukraynaya səfər etməyə və hər şeyi öz gözləri ilə görməyə səsləyib. Moskva isə Sumıya raket hücumu ilə bağlı rəsmi açıqlama verməyib.

Bundan başqa, Rusiya hərbçiləri dünən Odessa vilayətinin yaşayış məntəqlərini də dron atəşinə tutublar. Orada 7 nəfərin həlak olduğu bildirilir. Odessada bir tibb müəssisəsinin dron zərbəsindən zədələndiyi barədə də xəbər verilir.

Dünən Ukrayna aviasiyası Rusiyanın bir neçə qonşu vilayətlərinin şəhər və kəndlərinə dron zərbələri endirib. Rusiya Müdafiə Nazirliyinin açıqlamasına görə, bu ölkənin hərbi müdafiə sistemləri Ukraynanın 52 PUA-sını zərərsizləşdirib. Ən çox (33) dron isə Bryansk səmasında məhv edilib.

Yeri gəlmişkən, Bryansk vilayətinin qubernatoru Aleksandr Boqomaz yerli mediaya açıqlamasında bildirib ki, Ukraynanın hava hücumuna baxmayaraq, vilayətin ərazisində ciddi dağıntılar qeydə alınmayıb. Onun sözlərinə görə, mülki əhali arasında da zərərçəkənlər yoxdur.

Bir çox hərbi ekspertlər xatırladırlar ki, son günlər Rusiyanın hərbi və mülki obyektləri əvvəlki həftələr və aylar ilə müqayisədə daha tez-tez hava zərbələrinə məruz qalır. Bu, ilk növbədə onunla izah olunur ki, Ukrayna artıq öz ərazisində dron istehsal edən bir çox hərbi müəssisələr yaradıb.

Lakin Ukraynanın daxili silah istehsalı kifayət etmir. Qarşısında Rusiya kimi nəhəng hərbi maşına malik dövlət dayanır. Rusiyanın əsgəri resursları da Ukraynadan qat-qat çoxdur. Bununla yanaşı, döyüşən tərəflərin heç biri güzəştə getmək niyyətində deyil. Deməli, üfüqdə sülhün işartıları yoxdur.

Ukrayna uzun müddətdir ki, Almaniyadan "Taurus" raketlərini istəyir. Lakin Berlin həmişə belə bir mühüm silahın ukraynalılara təhvil verilməsindən imtina edib. Göründüyü kimi, Merts bunu etməyə hazır olduğunu aşkar şəkildə bəyan edir. Bununla belə, siyasətçi məlum məsələlərdə avropalı müttəfiqləri ilə koordinasiyalı şəkildə hərəkət edəcəklərini də gizlətməyib.

Görünən budur ki, Ukrayna böhranı ilə əlaqədar ABŞ–Rusiya danışıqları dalana dirənib. Trampın danışıqlar üzrə təmsilçisi Stiven Uitkoff Sankt-Peterburqda Rusiya lideri V.Putinlə artıq 3-cü dəfə görüşdən sonra dünən Vaşinqtona qayıdıb. Moskva öz əvvəlki tələblərindən geri çəkilmir və bu, danışıqlar prosesinə mənfi təsir göstərir.

Prezident Tramp vəziyyətdən hələlik çıxış yolu tapılmadığı üçün sələfi Co Baydenin Rusiyaya qarşı tətbiq etdiyi sanksiya paketini daha bir il müddətinə uzatmaq haqqında fərman imzalayıb. Məlumatı ABŞ Federal Reyestri yayıb. Bildirilib ki, Ağ evin hazırkı rəhbəri 15 aprel 2021-ci il tarixində qüvvəyə minmiş fərmanın müddətini uzadıb. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bu məsələni şərh edərkən deyib ki, Moskva bu ölkəyə qarşı tətbiq edilən bütün sanksiyaları qanunsuz hesab edir və onların ləğv edilməsini gözləyir.

Bu arada məlum olub ki, ABŞ-ın demokrat-senatoru Tim Keyn Kiyevə gəlib. Onun səfər proqramı haqqında məlumat verilməyib. Qeyd edək ki, T.Keyn 2013-cü ildən Virciniya ştatının senatorudur. O, ABŞ Senatının Beynəlxalq Münasibətlər Komitəsinin üzvüdür.

Beləliklə, Avropanın şərqində iki qonşu slavyan xalqının bir-birinə qarşı amansız savaşı davam edir. Hər iki tərəfdən günahsız insanlar həyatlarını itirirlər. Dünya birliyi və ictimaiyyəti ümidsiz vəziyyətdədir. Yeganə ümid bunadır ki, bütün müharibələr sülhlə bitir və haçansa bu mənasız savaşa da son qoyulacaq.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Beynəlxalq Əmək Təşkilatının Baş direktoru AHİK-də

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Beynəlxalq Əmək Təşkilatının (BƏT) Baş direktoru Jilber Hunqbonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Konfederasiya sədri Sahib Məmmədov Azərbaycan həmkarlar ittifaqları ilə BƏT arasında qarşılıqlı faydalı əlaqələrdən danışıb, ölkəmizdə təşkilatın işçi hüquqları ilə bağlı 59 konvensiyasının ratifikasiya olunduğunu qeyd edib. Bildirilib ki, Konfederasiya ilə BƏT-in əməkdaşlığı çərçivəsində Azərbaycanda əmək hüquqları ilə bağlı müxtəlif mövzularda konfrans, seminar və dəyirmi masalar təşkil olunub, proqramlar hazırlanıb, layihələr həyata keçirilib.

BƏT-in Baş direktoru Jilber Hunqbo Azərbaycanda olmaqdan məmnunluğunu bildirib, rəhbərlik etdiyi təşkilatla AHİK-in səmərəli əməkdaşlığından, həyata keçirilən layihələrin əhəmiyyətindən danışıb, əlaqələrin səviyyəsini yüksək dəyərləndirib. Jilber Hunqbo BƏT-in qərar və tövsiyələrinin həmkarlar ittifaqlarının effektiv fəaliyyəti üçün önəmini qeyd edib və bu məsələlərə Konfederasiyanın daim həssas yanaşdığını bildirib.

Görüşdən sonra BƏT-in Baş direktoru Jilber Hunqbo və nümayəndə heyətinin üzvləri "Kurort" Turizm İnformasiya Mərkəzində yollayışların verilməsi prosesində tətbiq edilən yeniliklərlə, eləcə də yeni yaradılmış Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi ilə tanış olublar.

# AHİK-in növbəti sosial layihəsi

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Konfederasiyanın üzv təşkilatı Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və "Referans Medical Group"un birgə təşkilatçılığı ilə "Həmkardan həmkara qayğı ilə" yeni sosial layihəyə başlanılıb.**



Layihə çərçivəsində ilk səyyar tibbi müayinə aprelin 10–11-də dağlıq rayon Lerikdə təşkil olunub. Lerik Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən ödənişsiz səyyar tibbi müayinə zamanı oftalmoloq, otorinolarinqoloq, endokrinoloq, nevroloq, uşaq nevroloqu, infeksionist, pediatr və travmatoloqdan ibarət peşəkar həkim heyəti tərəfindən müayinələr aparılıb.

İki gün ərzində, ümumilikdə, 300-ə yaxın aztəminatlı və ehtiyacı olan vətəndaşa 600-dən çox tibbi xidmət göstərilib. Səhhətində problem aşkarlanan sakinlərə tibbi məsləhətlər verilib, müvafiq müalicələr təyin olunub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 73 (30767) 15 aprel 2025-ci il, çərşənbə axşamı

İdman

## Qəbələ–Xankəndi ultramarafonu başa çatıb



**Qəbələ–Xankəndi ultramarafonunun son – 4-cü mərhələsi keçirilib. Ağdamdan başlayan yarış Xankəndidə sona çatıb. İştirakçılar 4-cü mərhələdə 28 kilometr məsafə qət ediblər.**

Son mərhələnin qalibi kişilər arasında türkiyəli atlet Ömər Alkanoğlu olub. 2-ci yeri onun həmyerlisi Üzeyir Söyləməz, 3-cü pilləni isə gürcüstanlı Georgi Lomidze tutublar. Üzeyir Söyləməz əvvəlki üç mərhələni də birinci pillədə başa vurduğu üçün əsas mükafat ona verilib.

Qadınların mübarizəsində son mərhələdə türkiyəli Hasibe Dəniz fərqlənib. Ukraynalı Alyona Şevçenko 2-ci, azərbaycanlı atlet Leyla Abdinova isə 3-cü pillələrdə qərarlaşıblar. Burada da ilk üç mərhələdə Alyona Şevçenko bütün rəqiblərini qabaqladığı üçün əsas qalib o elan edilib.

Qeyd edək ki, "İdman paytaxtı" Qəbələ şəhərindən start götürən ultramarafona 23-ü qadın olmaqla 81 atlet qatılıb. Yarış iştirakçıları arasında Türkiyə, Ukrayna, Rusiya, Moldova və Gürcüstan atletləri yer alıblar.

## Şahmat hakimimiz "Ginnes" rekordçusu oldu



**Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənovun 85 illiyi münasibətilə yubiley toplantısı keçirilib.**

Azərbaycan Şahmat Federasiyasından bildirilib ki, mərasimdə yubilyar F.Həsənovun adının ən uzunmüddətli hakim kimi Ginnesin Rekordlar Kitabına daxil edildiyi elan olunub. "Guinness World Records"un rəsmisi Şeyda Subaşı təqdim olunan məlumatların yoxlanılaraq tələb edilən şərtlərə tam uyğun olduğunu söyləyib.

Beləliklə, Faiq Həsənov şahmat üzrə ən uzunmüddətli kişi hakim kimi rəsmən təsdiqlənib. F.Həsənov 60 il 149 gün müxtəlif şahmat yarışlarında hakimlik etməklə dünyanın məşhur Ginnesin Rekordlar Kitabına düşüb. Bununla bağlı "Guinness World Records"un rəsmisi səbəbkara rəsmi sertifikatı təqdim edib.

## Taekvondoçumuz Avropa 2-cisidir



**Azərbaycanın "Altay" taekvondo klubu Estoniyanın paytaxtı Tallində keçirilən klublararası Avropa çempionatında 2-ci yeri tutub.**

Turnirdə ölkəmizi "Atlet" və "Mübariz" kollektivləri də təmsil ediblər.

Fateh Sultanlı (40 kq), Cahid İsmayılzadə (52 kq) və Fərid Məlikli (24 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar. Fərhad Məlikli (24 kq) gümüş, Əkbər Tağıyev (27 kq) və Əjdər Qalabəyov (36 kq) isə bürünc medal qazanıblar. "Altay" komanda hesabında iki qızıl medalla 2-ci yeri tutub.

*LQ URBANOVA*
*XQ*

***✓ 2007-ci ildə Xaçmaz rayonunun Susayqışlaq Bələdiyyəsi tərəfindən Həsənov Taryel Humay oğlunun adına verilmiş torpaqların alqı-satqısına dair 1491 saylı akt , 36 saylı qərar və üç yüz səksən dörd manatlıq qəbz itdiyi üçün etibarsız sayılır.***

# Güləşçilərimiz Avropanı fəth etdilər

## *Komandamız 2-ci dəfə ən yüksək pillədə*

**Slovakiyada keçirilən Avropa çempionatında sərbəst güləşçilərimizdən sonra yunan-Roma güləş yığması da böyük uğura imza ataraq qalib adını qazanıb. Azərbaycan 3 qızıl, 1 gümüş, 2 bürünc medalla bütün ölkələri qabaqlayaraq 1-ci yerdə qərarlaşıb.**





Sevindirici haldır ki, bütün medalları doğma güləş məktəbimizin yetirmələri əldə ediblər. Yəni yüksək nəticələri qazananlardan heç biri də legioner deyil. Qızıl medal qazanan pəhləvanların doğulduğu coğrafiyaya diqqət edək. 3-cü dəfə Avropa çempionu titulunu qazanan Həsrət Cəfərov Goranboyda, ikiqat qitə çempionu Nihat Məmmədli Füzulidə, Qurban Qurbanov Kürdəmirdə doğulub. Deməli, regionlarımızda, kənd, rayonlarımızda güclü potensiala malik uşaqlar var və bölgələrdə güləş seksiyalarının fəaliyyəti daha da genişlənməlidir.

Həsrət Cəfərov artıq 3-cü dəfədir ki, Avropa çempionatında rəqib tanımır. 23 yaşlı gənc güləşçi üçün bu böyük bir uğurdur. Həsrət Paris Olimpiadasının bürünc medalına sahib olub. 2017-ci ildə U17 Avropa çempionatının, 2021-ci ildə U20 Dünya və Avropa çempionatlarının, həmçinin U23 Dünya çempionatının qalibi olub. Avropa Gənclər Olimpiya Festivalı, İslam Həmrəyliyi Oyunları da daxil olmaqla, bir sıra beynəlxalq turnirlərin də qızıl medallarına sahib olub. Karyerası ərzində çıxdığı 12 nüfuzlu yarışın final görüşlərinin 11-də qalib gəlib, cəmi bir finalda – 2023-cü ildə keçirilən Dünya çempionatında məğlub olub.

Ötən il Avropa çempionu olan Nihat Məmmədli (60 kq) bu dəfə də titulunu qorumağı bacarıb. İstedadlı güləşçi ötən il Albaniyada keçirilən Dünya çempionatında bütün rəqiblərini məğlub edərək qalib adını qazanmışdı.

Həsrət Cəfərov (67 kq), eləcə də Nihat Məmmədli yarışla bağlı təəssüratlarını bölüşərkən əldə etdikləri qələbəni xalqımıza həsr etdiklərini bildiriblər. Onlar dəstəyə görə azarkeşlərə təşəkkür ediblər.

Kişilər arasında ilk dəfə qatıldığı Avropa çempionatında qalib olan Qurban Qurbanovun (82 kq) da bundan əvvəl qazandığı böyük nailiyyətləri ilə qürur duymaq olar. İstedadlı pəhləvan 20 və 23 yaşadək güləşçilər arasında Dünya çempionu olub. 23 yaşadək güləşçilərin Avropa çempionatında 2 dəfə qalib adını qazanıb. Hər 3 çempion 2002-ci il təvəllüdlüdür. Onlar dünya çempionatlarında, Olimpiya Oyunlarında parlaq nailiyyətlər qazana bilərlər.

Sərbəst güləşçilərimizin 5-ci dəfə Avropa çempionu tituluna sahib çıxması parlaq nəticədir. Qadın güləşi üzrə millimizin üzvü Jalə Əliyeva (57 kq) zədələrə baxmayaraq, böyük ustalıq göstərərək Avropa 3-cüsü oldu.

Kişilər arasında ilk dəfə Avropa çempionu olan Qurban Qurbanov mediaya açıqlamasında Avropada güləşin çox inkişaf etdiyini və yarışda gərgin rəqabətin olduğunu bildirib. O qeyd edib ki, qələbə üçün komanda ruhu və əzmkarlıq gərəkdir. Güləşçimizin sözlərinə onu da əlavə edək ki, son illər Azərbaycanın dünyada mövqeyi qüvvətləndikcə, gücü artdıqca idmançılarımızın da qələbə əzmi çoxalır. Budəfəki Avropa çempionatında güləşçilərimizin nümayiş etdirdikləri yenilməz güc bir daha qitəyə səs saldı. Avropa çempionatında nəticələr bir daha göstərdi ki, Azərbaycan güləş ölkəsidir və təmsilçilərimiz ən nüfuzlu yarışlarda öz sözlərini deməyə qadirdirlər.

*Leyla QURBANOVA*
*XQ*





SAĞLAMLIQ

# İsladılmış dən – güc alır bədən



**Dəmir, sink, kalsium daha yaxşı mənimsənilsin deyə, qarabaşaq yarması və düyünün isladılması vacibdir. Tibb elmləri namizədi, toksikoloq Mixail Kutışov jurnalistlərə açıqlama verərkən elmi təcrübələrlə bu qənaətə gəldiyini vurğulayıb:**

– Taxılları bir gecə islatmaq qida maddələrinin udulmasını yaxşılaşdıran və antinutrientlərin tərkibini azaldan bir sıra biokimyəvi prosesləri aktivləşdirir. İslatma fitik turşusunun tərkibini azaldır. Bu, toxumlarda, qoz-fındıqda, paxlalılarda və dənli bitkilərdə olan bir maddədir. Minerallarla birləşir və həll olunmayan fitatlar əmələ gətirir ki, bu da onların bağırsaqlarda udulmasını çətinləşdirir.

Nəmləndirildikdə fitaz fermenti aktivləşir, fitik turşusunu parçalayır və onunla əlaqəli mineralları çıxarır. Nəticədə dəmir, sink, kalsium və maqnezium yaxşı mənimsənir. Fitik turşuya əlavə, taxıllarda digər antinutrientlər – taninlər və ferment inhibitorları ola bilər. İsladılanda bu maddələrin bir hissəsi kənarlaşır, bişmə vaxtı azalır, həm də dadı yaxşılaşır. Bu yolla hazırlanan sıyıqlar daha yumşaq olur.

Toksikoloq bildirib ki, yulafı 8–12, çovdarı 8, qəhvəyi düyünü 12, ağ düyünü 9, yabanı düyünü 5, arpanı 6, qarabaşaq yarmasını və darını 5 saat islaqda saxlamaq lazımdır.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

## Yazın ortasında qar və dolu



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 15-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin fasilələrlə yağıntılı olacağı, şimşək çaxacağı, yağışın leysan xarakterli olacağı, arabir intensivləşəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 7-10°, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq.

Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 12-16° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-9° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi

**BAYRAM ƏMRALI OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Almaz Ülvi və Hacı Rauf Binnətovlar Xəzər Aslanova qardaşı

**MAQSUD QƏŞƏM OĞLU ASLANOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3365
SİFARİŞ 743
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00